RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 243 (9698) 3 noyabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Şanlı Zəfərin Böyük qayıdış mərhələsi



## Qarabağ və Şərqi Zəngəzura indiyədək 2263 ailə, 8660 nəfərin köçürülməsi ölkəmizin iqtisadi qüdrətinin bariz təcəssümüdür

**İkinci Qarabağ müharibəsində Şanlı Zəfərimizin dördüncü ilini möhtəşəm təntənə ilə qeyd etməyə hazırlaşırıq. 8 Noyabr - Zəfər Günü tariximizin ən şanlı səhifəsidir və hər bir azərbaycanlı üçün müqəddəs bir gündür.**

Ötən il noyabrın 8-də Xankəndidə keçirilən hərbi paradda Müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha Qələbəyə aparan əsas amilləri açıqlayaraq dedi ki, işğala məruz qalan ölkə kimi Azərbaycan 20 il ərzində bu günə doğru gedirdi, hazırlıq işləri görülürdü, beynəlxalq hüquq müstəvisində ölkəmizin mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə aparılan uğurlu fəaliyyət nəticəsində bütün dünyaya məlum olmuşdu ki, haqlı tərəf Azərbaycandır. Aparılan islahatlar Azərbaycanı iqtisadi müstəqilliyə sahibləndirdi və bununla da Cənubi Qafqazın lider dövləti iqtisadi cəhətdən heç kimdən asılı vəziyyətdə olmadı. Güclü siyasi iradə isə müstəqil xarici siyasətin yürüdülməsinə real zəmin yaratdı və bütün bunlar Azərbaycanı sonunda arzuladığımız Zəfərə apardı.

**Qələbənin Xankəndi zirvəsi, suverenliyin bərpası**

Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdı. Azərbaycan dövlətinin və xalqının qazandığı bu hərbi və siyasi qələbə unikallığı ilə tarixə yazıldı. Dünya tarixində belə bir hadisə olmayıb ki, bir dövlət 30 il işğalda olan torpaqlarını 44 gün ərzində hərbi və siyasi yolla azad etsin. Xalqımız bunu bacardı. Azərbaycan xalqı öz liderinin, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında sıx birləşərək bütün dünyaya öz gücünü, mübarizliyini nümayiş etdirdi. 44 gün ərzində Azərbaycan Ordusunun əsgər və zabitləri böyük şücaət və qəhrəmanlıq göstərdilər, döyüşlər zamanı bir addım belə geri çəkilmədilər. Əsgərlərimiz və zabitlərimiz torpaqlarımız və dövlətimiz uğrunda öz canlarını, qanlarını əsirgəmədilər. Azərbaycan xalqı həmişə olduğu kimi, müharibə zamanı da öz Prezidentinə inandı. Xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşdi, öz ordusunun arxasında dayandı. Bu vəhdət "dəmir yumruğ"a çevrildi. Elə bir yumruğa çevrildi ki, bu yumruğu açmağa heç kimin nə gücü, nə də qüdrəti çatardı.

→ 4

## Avropa Parlamenti İrəvanın siyasi gündəliyindən çıxış edir

İlk növbədə Avropa Parlamentində müzakirələr zamanı səsləndirilənlər xüsusilə COP29 sessiyasına qarşı açıqlamalar, böhtanlar və yersiz bəyanatlar olur. Çıxış edənlərin hər birinin COP29 sessiyasına qarşı nə qədər qərəzli, əsassız fikirlər söylədiyinin bir daha şahidi oluruq. Avropa Parlamentinin üzvləri COP29 sessiyasını Azərbaycanda insan hüquqları və ermənilərin hüquqları kimi məsələlər ilə qarışdırmağa cəhd edərək, ölkəmizə qarşı əsassız ittihamlar səsləndirirlər. Azərbaycanda insan hüquqlarının pozulmasından dəm vuran deputatlar keçmiş azərbaycanlı məcburi köçkünlər, onların vəziyyəti, o cümlədən hazırda Qərbi Azərbaycan İcmasının üzvləri olan insanların hüquqları haqqında bir kəlmə də danışmırlar. Bu, onların nə qədər ikiüzlü, riyakar siyasət aparmasını göstərir. Azərbaycanla Avropa İttifaqı arasında neft kontraktlarının dayandırılmasını istəyən bu deputatlar xarici siyasət məsələlərindən nə qədər kənar olduqlarını göstərir, onlar yersiz şəkildə müdaxilələr, çağırışlar edərək öz aləmlərində Azərbaycana təzyiq göstərə biləcəklərini düşünürlər.

Onlar Avropa İttifaqının özünün Azərbaycanla neft və alternativ enerji sahəsində sazişlərin bağlanmasının təşəbbüskarı olduğunu anlamaq istəmirlər. Avropa İttifaqı Azərbaycanın enerji resurslarının bu qitəyə nəql olunmasında əsas maraqlı tərəfdir.

→ 5

## Qərb Gürcüstanı dirijor çubuğu ilə idarə etməyə çalışır

Qərb düşünür ki, Gürcüstan hakimiyyəti dirijor çubuğu ilə hərəkət etməli və diktə altında fəaliyyət göstərməlidir. Qərblə yaxındırsa, Rusiya və beynəlxalq birliyin digər subyektləri ilə normal münasibətlərdə olmamalıdır. Avropa hansı istiqamətə yönəltsə, o yöndə də siyasət yürütməlidir. Bu yanaşma demokratiya ilə daban-dabana ziddir. Fikir, düşüncə plüralizminin tam əksidir və demokratiyanın fundamental prinsiplərinin üstündən xətt çəkmək anlamına gəlir. Hansı ki Qərb demokratiya məsələlərində Gürcüstanı tənqid edir.

Hətta hakimiyyəti zorla devirməyə gedəcəklərini göstərən cürbəcür şüarlar səsləndirirlər. Onlar üçün marionet hakimiyyət lazımdır. Bu baxımdan Kobaxidze hökumətinin həyata keçirdiyi siyasəti həzm edə bilmirlər. Qərb Gürcüstanda Moldovadan sonra ikinci dəfə böyük uğursuzluğa düçar oldu. Moldovada keçirilən seçkilərdə və referendumda xalqın təxminən yarısı Qərb siyasi kursunun əleyhinə səs verdi ki, bunu qətiyyən gözləmirdilər. Bu analoji proses daha kəskin şəkildə Gürcüstanda özünü göstərdi. Qərb fərqindədir ki, artıq demokratiya pərdəsi altında öz geostrateji niyyətlərini həyata keçirmək istəkləri fiaskoya uğrayır. Buna görə də təzyiq və təhdid kampaniyasına başlayırlar.

→ 5

## BMT-dən dünya ölkələrinə çağırış

### Ali qurum jurnalistlərə qarşı törədilən cinayətlərə görə cəzasızlığa son qoyulmasını tələb edib

2013-cü ildə BMT Baş Assambleyası özünün 68-ci sessiyasında 68/163 saylı qətnamə qəbul edərək, hər il noyabrın 2-ni "Jurnalistlərə Qarşı Cinayətlərə görə Cəzasızlığa Son" Beynəlxalq Günü elan edilməsinə qərar verib.

Qətnamə üzv dövlətləri cəzasızlıqla mübarizə üçün konkret tədbirlər görməyə çağırıb. Bu tarix 2013-cü il noyabrın 2-də Malidə öldürülən iki fransız jurnalistin xatirəsinə ehtiram kimi seçilib. Bu əlamətdar qətnamə media işçilərinə qarşı istənilən hücumları və zorakılıq aktlarını pisləyir.

Bundan əlavə, qətnamə üzv dövlətləri jurnalistlərə və media işçilərinə qarşı zorakılığın qarşısını almaq üçün əllərindən gələni etməyə, onlara qarşı cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasını və məhkəmə qarşısına çıxarılmasını təmin etməyə və qurbanların adekvat hüquqi müdafiə vasitələrinə çıxışını təmin etməyə səsləyib.

Qətnamə həmçinin dövlətləri jurnalistlərin müstəqil şəkildə və əsassız müdaxilə olmadan öz işlərini yerinə yetirmələri üçün təhlükəsiz və əlverişli mühit yaratmağa dəvət edir.

2022-2023-cü illərdə UNESCO jurnalistlərin, media işçilərinin və sosial media məzmun istehsalçılarının 162 qətlini qeydə alıb. Bu barədə "Jurnalistlər böhran və fövqəladə hallar cəbhəsində" adlı hesabatda deyilir. Hesabatın müəllifləri bildirirlər ki, bu, əvvəlki iki illə müqayisədə 38 faiz çoxdur.

Hesabatda qeyd olunur ki, jurnalist qətllərinin sayının artması qismən silahlı münaqişələrin olduğu ölkələrdə media işçilərinin ölüm hallarının artması ilə bağlıdır. Lakin bu ölkələrdən kənarda 2022-ci ildə baş vermiş 60 insidentlə, UNESCO tarixində ən yüksək göstərici olmaqla, jurnalistlərin qətlində əhəmiyyətli artım qeydə alınıb.

Təşkilatın məlumatına görə, Latın Amerikası və Karib hövzəsi jurnalistlərin ən çox qətlə yetirildiyi region olaraq qalır.

→ 5



## Azərbaycanın "yumşaq güc"ü: zəngin tarixi irs və modern müasirlik

### Hər ikisi turizmin inkişafı üçün əvəzsiz şərtdir

Ölkəmizdə mədəni turizm üçün potensial yetəri qədərdir. Bu turizmi ehtiva edən Qız qalası, Çıraqqala, İçərişəhər, Şirvanşahlar sarayı, Qobustan qayalıqları, Xudavəng monastrı, Xudafərin körpüsü, Möminə-Xatun türbəsi, Şəki Xan Sarayı, Gəncəsar monastırı, Atəşgah, Heydər Əliyev Mərkəzi, "Alov qüllələri", Xalça muzeyi, Baku Crystal Hall həm tarixi əks etdirən, həm də müasir üslubu ilə ecazkar memarlıq nümunələri kimi diqqət çəkir. Muzeylər, genetik kodumuzu əks etdirən milli muğamımız, multikulturalizm və tolerantlığı özündə daşıyan məkanlar, alman və yəhudilərin bir vaxtlar məskunlaşdığı, eləcə də azsaylı xalqların yaşadığı bölgələr mədəni turizmimizin əsasını təşkil edir. Qeyd edək ki, sadalananlardan əksəriyyəti UNESCO-nun Ümumdünya mədəni irs siyahısına salınıb. Bu da faktdır ki, Azərbaycanın mədəniyyət potensialının çox hissəsi Bakıda cəmləşib. Bununla belə bölgələrdə də diqqətçəkən, hər bir turistin marağına səbəb ola biləcək yerlər çoxdur. Gəncə, Şəki, Qəbələ, Naxçıvan və Qarabağ bölgəsi bu mənada fərqlənir və o üzdən turistlərin ən çox ziyarət etdikləri bölgələrdir.

→ 6

## İrəvan təşvişdə: Ermənistanda böyük müharibə başlayacaq

Rəsmi İrəvan hərbi müttəfiqi Rusiyaya qarşı çıxaraq Qərbin verdiyi vədlərə güvənir. Hər halda Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətdə konkret seçim etdiyi görünür.

Erməni politoloq Stepan Danielyan deyib ki, Ermənistanın hazırkı hakimiyyətinin xarici siyasət kursu yoxdur. Onlar qərarları ani verirlər və bu, xaricdən diktə olunur. Bildirib ki, Ermənistan de-yure Avropa Birliyinə gedir, amma de-fakto artıq BRICS-dədir. Ermənistanın bütün iqtisadi layihələri BRICS-lə bağlıdır. Qonşuları da BRICS-lə əməkdaşlığa can atırlar. Lakin hökumətin fəlakətli səhvlərindən biri Rusiya qoşunlarını Ermənistan-Türkiyə sərhədindən çəkmək olacaq. Hələlik bu qərar verilməyib, amma hakimiyyət Rusiya qoşunlarının Ermənistandan mərhələli çıxarılması imkanlarını istisna etmir.

Danielyan iddia edir ki, Ankara Rusiya qoşunlarının Ermənistanda olmasına öz sərhədinin müdafiəsi kimi baxır, çünki PKK terrorçularının buradan ölkəyə girməyəcəyinə inanır: "Rus ordusunun gedişindən sonra Türkiyə Ermənistan ərazisində antiterror əməliyyatı keçirmək üçün legitim haqq əldə edəcək. Başqa sözlə, rus ordusu təkcə Ermənistanı Türkiyədən yox, həm də Türkiyəni PKK-dan qoruyur. Hazırda Qafqazda Rusiya, İran və Türkiyə arasında konsensus yaranır. Bu ölkələrdən birinin gedişi konsensusu pozacaq. Nəticədə ərazimizdə sözügedən ölkələr arasında böyük müharibə başlayacaq".

Digər erməni politoloq Robert Qevondyan isə qeyd edib ki, Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd Donald Trampın seçilməsi Ermənistanın maraqlarına uyğun deyil. Bildirib ki, Tramp artıq bəyan edib ki, seçiləcəyi təqdirdə Cənubi Qafqaz prioritet olmayacaq, Ukrayna isə sülh naminə Rusiyaya güzəşt etməlidir.

→ 5

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 468 QƏRAR Bakı şəhəri, 31 oktyabr 2024-cü il

## "Digər dövlətdə qeydiyyatda olan mülki hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsi, uçuş heyətinə və uçuş sənədlərinə dair tələblərin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Digər dövlətdə qeydiyyatda olan mülki hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsi, uçuş heyətinə və uçuş sənədlərinə dair tələblərin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "ASAN xidmət" mərkəzlərində alternativ enerjidən istifadə olunacaq

**Noyabrın 2-də "ASAN xidmət" mərkəzlərində alternativ enerji mənbələrinə keçid" layihəsi ilə bağlı təqdimat mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev iştirak ediblər.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elan edilmiş 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən təşəbbüslər ekoloji davamlılıq və "yaşıl texnologiyalar"ın xüsusi önəmi nəzərə alınmaqla reallaşdırılır. Həmçinin "Azərbaycan 2030-cu il" Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlərin beşincisi olan "Təmiz ətraf mühit və yaşıl artım" hədəfinə də xüsusi önəm verilir.

Eyni zamanda "ASAN xidmət" tərəfindən də ölkəmizdə dayanıqlı və "yaşıl gələcəy"in təmin edilməsi istiqamətində innovativ ekoloji təşəbbüslər həyata keçirilir.

"ASAN xidmət" mərkəzlərində ümumilikdə 19 milyon kilovat-saat elektrik enerjisi istehlak olunub. Bu fakt enerji tələbatını dayanıqlı şəkildə qarşılamaq üçün innovativ həllərin tətbiqini zəruri edir. Qeyd olunanları nəzərə alaraq, Dövlət Agentliyi "ASAN xidmət" mərkəzlərində alternativ enerji mənbələrinə keçid" layihəsinə start verib. Layihə çərçivəsində ilkin olaraq 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin damında günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binanın elektrik ehtiyacları təmin ediləcək. Layihənin tezliklə bütün "ASAN xidmət" mərkəzlərinin inzibati binalarında və dayanacaq yerlərində reallaşdırılması nəzərdə tutulur.

Günəş enerjisindən istifadə və qabaqcıl texnologiyaların tətbiqi "ASAN xidmət" mərkəzlərində karbon dioksid tullantılarını əhəmiyyətli dərəcədə azaldacaq. Bununla da mərkəzlərə gündəlik müraciət edən 40 minə yaxın vətəndaş üçün daha təmiz, sağlam bir mühit formalaşdırılacaq.

# COP29-la bağlı nəqliyyatın idarə olunması üzrə növbəti monitorinqlər keçiriləcək

**COP29 konfransı ərəfəsində nəqliyyat hərəkətinin səmərəli təşkili məqsədilə Bakıda nəqliyyatın idarə edilməsi üzrə monitorinqlər davam etdirilir.**




Öncədən verilən məlumata əsasən, noyabrın 3-də saat 11:00-dan 14:00-dək davam edəcək yol nəqliyyatının monitorinq tədbirləri bütövlükdə tədbirin nəqliyyat planı və marşrutuna uyğun icra olunacaq və paytaxtın Heydər Əliyev prospekti Zuğulba yolu, Nərimanov, Xətai, Tbilisi, İnşaatçılar və Neftçilər prospektləri, eləcə də Teymur Elçin, Niyazi, Yusif Səfərov, Mehdi Hüseyn, Dəniz kənarı, Zərifə Əliyeva, Üzeyir Hacıbəyli, Kövkəb Səfərəliyeva, Bakıxanov küçələrini, həmçinin qismən İstiqlaliyyət küçəsini əhatə edəcək.

COP29 Azərbaycan Əməliyyat Şirkətindən AZƏRTAC-a bildirilib ki, həmin müddətdə qeyd edilən yollarda nəqliyyatın hərəkətinə tətbiq ediləcək məhdudiyyətlər nəzərə alınaraq sürücülərdən alternativ yollardan və ictimai nəqliyyat vasitələrindən istifadə edilməsi xahiş olunur.

COP29 Azərbaycan Əməliyyat Şirkəti, Daxili İşlər Nazirliyi və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən aparılacaq monitorinq prosesi zamanı COP29 konfransı çərçivəsində planlaşdırılan marşrutlar və nəqliyyat hərəkəti planları test ediləcək.

# COP29 günlərində Bakıda 2-ci Yüksək Səviyyəli Nazirlər Dialoqu keçiriləcək

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində noyabrın 15-də Bakıda mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə 2-ci Yüksək Səviyyəli Nazirlər Dialoqu keçiriləcək.**

Mədəniyyət Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, dialoqun COP29 "mavi zonası"nda 90 dəqiqə ərzində baş tutması planlaşdırılır.

Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və Azərbaycanın mədəniyyət nazirliklərinin təşkilatçılığı ilə tədbirdə nazirlər, nazir müavinləri və beynəlxalq təşkilat rəhbərləri iştirak edəcəklər. Bu tədbirdə ekspert və qeyri-hökumət təşkilatı nümayəndələri ilə birgə 120-yə yaxın qonağın iştirakı gözlənilir. Yüksəksəviyyəli dialoq mədəniyyəti, o cümlədən incəsənət və irsi iqlim fəaliyyəti gündəliyinə daxil etmək üçün beynəlxalq konsensusa nail olmağa çalışacaq.

COP29 çərçivəsində Azərbaycan pavilyonunda Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyətinin Dostları Qrupu, UNESCO, Azərbaycan, BƏƏ və Braziliya Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə yan tədbirin keçirilməsi, həmçinin tədbirdə Azərbaycanın təşəbbüsü olan Culture for Climate (C4C) layihəsinin təqdimatı da nəzərdə tutulur.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi COP29-a hazırlıq çərçivəsində cari ilin ötən dövründə bir çox tədbir təşkil edib. Bunlara UNESCO baş qərargahında Mədəniyyət Nazirliyi tərəfindən COP29 çərçivəsində həyata keçiriləcək mədəniyyət məzmunlu tədbirlərə dair təqdimat, "COP29 və Mədəniyyət: İqlim dəyişikliyinin mədəni ölçüləri" adlı konfransı, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda ətraf mühitin mühafizəsi və iqlim dəyişmələrinin mədəni irsə təsirinə dair panel və plenar sessiyalar, Ağdam şəhərində baş tutmuş "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri"nə həsr olunmuş xüsusi konfrans, "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Azərbaycan ekologiyası" adlı biblioqrafiya kitabının təqdimatı, eləcə də irili-xırdalı onlarca tədbir daxildir.

# Heydər Əliyev Mərkəzində italiyalı heykəltaraş Lorenso Kuinnin "Təbiətdə tarazlıq" sərgisi açılıb

**Noyabrın 1-də Heydər Əliyev Mərkəzində tanınmış italiyalı monumental heykəltaraş Lorenso Kuinnin (Lorenzo Quinn) "Təbiətdə tarazlıq" sərgisinin açılış mərasimi keçirilib.**













AZƏRTAC xəbər verir ki, sərginin Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində təşkil olunması təsadüfi deyil. Belə ki, "Təbiətdə tarazlıq" ("Equilibrium in Nature") ekspozisiyası ictimaiyyətin diqqətini bir daha ekoloji məsələlərə yönəldir.

Bakı sərgisinin konsepsiyasının əsasını ətraf mühitin dərk olunması, təbiətə qayğı ideyası təşkil edir.

Açılış mərasimindən əvvəl italyan heykəltaraş Lorenso Kuinn jurnalistlərə açıqlamasında burada olmaqdan çox şad olduğunu bildirərək deyib: "İnanılmaz məkanda bu heyrətamiz sərgini təşkil etmək məni çox həyəcanlandırır. Təbii ki, uzun illərdir bu məkanı izləmişdim və bir gün burada öz sərgimi təşkil edəcəyimə inanırdım. Xəyallar gerçəkləşdi. Həmçinin çox şadam ki, sərgim COP29 ilə üst-üstə düşür, çünki mənim sənət əsərlərimin hər biri özlüyündə bir universal mesajdır. Bu mesaj sevgini, sülhü və davamlılığı tərənnüm etdirir".

Sərginin açılışında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, rəsmi qonaqlar, diplomatlar, tanınmış incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

Açılış mərasimində çıxış edən Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov qısa müddət ərzində öz sərgisinin Azərbaycanda keçirilməsi üçün göstərdiyi dəstəyə görə Lorenso Kuinnə təşəkkürünü bildirib. O, Heydər Əliyev Mərkəzində cari il ərzində bir neçə italyan heykəltaraş və rəssamın təqdimatlarının keçirildiyini bildirib, hazırkı sərgidə çox gözəl heykəltaraşlıq nümunələrinin nümayiş olunduğunu deyib.

Anar Ələkbərov L.Kuinnin əsərlərinin COP29 tədbiri çərçivəsində Azərbaycana gətirildiyini, yaxın günlərdə ölkəmizdə keçiriləcək COP29 konfransına gələn qonaqların da bu incəsənət nümunələrini bəyənəcəyinə ümidvar olduğunu bildirib. Eyni zamanda Heydər Əliyev Mərkəzində də çoxsaylı tədbirlərin təşkilinin nəzərdə tutulduğu diqqətə çatdırılıb. O, mərkəzdə Lorenso Kuinnin 15 əsərinin nümayiş olunduğunu deyib, sərginin gələn il mayın 11-dək davam edəcəyini vurğulayıb.

"365 Art" şirkətinin təsisçisi, sərginin kuratoru Olqa Daniele tədbirin yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib.

O qeyd edib ki, Lorenso Kuinn öz əsərlərində eşqə, məhəbbətə, planetimizə olan vurğunluq hisslərini əsas tutur. Bu baxımdan müəllifin qeyri-adi bacarıqlarını özündə əks etdirən fikirləri məhz onun incəsənət əsərlərində hiss olunur.

Sərginin müəllifi Lorenso Kuinn Bakının çox gözəl şəhər olduğunu deyib, paytaxtımızda keçiriləcək COP29-a çox az vaxt qaldığını bildirib.

Möhtəşəm bir məkanda sərgisinin keçirilməsindən şad olduğunu söyləyən L.Kuinn əsərlərinin təbiətin gücünü təcəssüm etdirdiyini bildirib.

"Biz Yer kürəsini sevməliyik. Necə ki ana övladına o cür yanaşır, biz də elə yanaşmalıyıq. Yer kürəsinə hörmət etməliyik, necə ki öz anamıza hörmət edirik. Bizim yaşamaq üçün başqa məkanımız yoxdur. Bunu mütləq nəzərə almalıyıq. Çünki başqa yolumuz yoxdur", - deyə Lorenso Kuinn diqqətə çatdırıb.

Daha sonra qonaqlar Heydər Əliyev Mərkəzinin qarşısında və foyesində təqdim olunan sərgidə möhtəşəm heykəltaraşlıq nümunələrinə baxış keçiriblər.

İlk olaraq "Sevgi birliyi" əsərinə baxış olub. Həmin kompozisiya dünyaya qarşılıqlı sevgi və dəstək çağırışıdır. Çünki bəşəriyyətdə mükəmməl harmoniya içində əbədi bir əlaqə qurmaq imkanı məhz bu hisslər sayəsində mümkündür.

Bakı sərgisində ziyarətçilər italiyalı heykəltaraşın "Balanslaşdırılmış dünya" ("Balanced World"), "Təbiətin gücü" ("Force of Nature"), "Tanrının əli" ("Hand of God"), "Bəxş et və al" ("Give and Take") və "Birlikdə" ("Together") əsərləri ilə mərkəzin parkı ərazisində, "Eros", "Paralel dünya" ("Pharalel Universe"), "Özünü sev" ("Love Yourself") və müəllifin digər əsərləri ilə isə mərkəzin foyesində tanış ola biləcəklər.

Heykəltaraşın "Özünü sev" ("Love Yourself") əsəri özünə sevgi vasitəsilə məhəbbəti əks etdirmək, bu hissi dünya ilə paylaşmaq, düzgünlük yoluna işıq saçmağa çağırır.

"Perspektivdə" ("İn Perspective") adlı heykəltaraşlıq nümunəsi isə dünyamızın nə qədər zərif və kainatla müqayisədə çox kiçik olduğunu əks etdirir. Bununla Lorenso Kuinn insanları yaşadığımız dünyanı perspektivdə qiymətləndirməyə çağırır.

Eksponatlar arasındakı "Tanrının əli" ("Hand of God") heykəltaraşlıq nümunəsi müəllifin şedevrlərindən hesab olunur. Əsərdə bükülmüş halda olan insan yorğun şəkildə qollarını aşağı salaraq, onu dəstəkləyən nəhəng bir əlin ovcundadır. Lorenso bu əsərini oğluna həsr edib. "Tanrının əli" ziyarətçilərin diqqətini uşaqların real həyatda üzləşdikləri təhlükələrə cəlb edir. Bu əl sonradan Kuinnin digər monumental işlərində mərkəzi elementə çevrilib. Həmin əl sevgi, nifrət, yaratmaq hissi və məhv etmək gücünü təsvir edir.

Lorensonun Bakıya gətirilən digər işi isə "Birlikdə" ("Together") adlanır. Məhz bu kompozisiyanın Gizada nümayişi ilə ilk dəfə müasir incəsənətin piramidaya yaxın olmasına icazə verilmişdi. Sözügedən monumental kompozisiya 2021-ci ildə Kann şəhərində, 2023-cü ildə isə Dubayda sənətsevərlərə təqdim olunub. İndi isə bu əsər 6 ay ərzində Bakı sərgisində Heydər Əliyev Mərkəzinin parkında yer alacaq. Əsərdə insana həm yaratmağa, həm də məhv etməyə imkan verən əllər təsvir olunub. Bununla rəssam hər şeyin öz əlimizdə olduğuna inanır.

Müəllifin Bakıda sərgilənən digər əsəri isə "Təbiətin gücü"dür ("Force of Nature"). Əsər kövrək, lakin çox güclü qadın obrazını təcəssüm etdirir. Burada ana təbiətin özü canlandırılır. Ümumiyyətlə, rəssamın yaradıcılığında "Təbiətin gücü" heykəllər silsiləsi mühüm yer tutur. Bu seriyadan bir çox kompozisiya dünyanın müxtəlif ölkələrində nümayiş etdirilərək böyük şəhərlərin görməli yerlərini bəzəyib.

"Balanslaşdırılmış dünya" ("A Balanced World") əsəri də müəllifin həssas ideyasının daşıyıcısıdır. Eksponat "bəzən dünyalarımız bir-birinə əks qütblərdə görünsə də, mən həyatımda yalnız səninlə mükəmməl tarazlıqdayam" söyləyir.

Heydər Əliyev Mərkəzinin binasının önündə dünya sənətsevərlərini heyran edən "Bəxş et və al" ("Give and Take") əsərini də izləmək mümkündür. Həmin əsərlə heykəltaraş diqqəti həyatda, o cümlədən təbiətdə tarazlığın önəminə yönəldir. Bu əsər su üzərində ilk dəfədir ki, Azərbaycanda nümayiş etdirilir.

"Oskar" mükafatına layiq görülmüş aktyor Entoni Kuinn və geyim dizayneri, aktrisa İolanda Addolorinin ailəsində doğulan Lorenso Nyu Yorkda İncəsənət Akademiyasında təhsil alıb, rəssam olmağı planlaşdırsa da, enerjisini və orijinal ideyalarını daha yaxşı ifadə etmək üçün taleyini heykəltaraşlıqla bağlamaq qərarına gəlir. Lorenso Kuinn aktyor kimi də tanınaraq filmlərdə rol alıb.

"Hisslərin yaradıcısı", "emosiyaların rəssamı" kimi tanınan Lorenso son dövrlərdə ən çox tələb olunan heykəltaraşlardan biridir. Lorenso Kuinnin əsərləri dünyaya sülh, harmoniya, "yaratmaq və ya məhv etmək yalnız öz seçimimizdən asılıdır" kimi mesajları çatdırır. Onun əsərləri insan təbiətinin müsbət və mənfi cəhətlərinin tarazlığını nümayiş etdirir.

Xatırladaq ki, Lorenso Kuinnin əsərləri 2025-ci il mayın 11-dək Heydər Əliyev Mərkəzinin parkında və foyesində təqdim ediləcək.




# COP29 tarixlərində nəqliyyatın idarə olunması planının təqdimatına dair brifinq keçirilib

**COP29 konfransı tarixlərində Bakıda nəqliyyatın idarə olunması planı və bu istiqamətdə icrası nəzərdə tutulan kompleks tədbirlər barədə ictimaiyyəti məlumatlandırmaq məqsədilə COP29 Azərbaycan Əməliyyat Şirkəti, Baş Dövlət Yol Polisi İdarəsi və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) iştirakı ilə COP29 nəqliyyat planının təqdimatına dair brifinq keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbir məkanı olan Bakı Stadionunda baş tutan brifinqdə adıçəkilən qurumların nümayəndələri konfransın keçiriləcəyi müddətdə böyük ziyarətçi axınını idarə etmək məqsədilə nəqliyyat xidmətinin effektiv təşkili, iştirakçıların və yerli sakinlərin rahat hərəkətini təmin etmək üçün görülən tədbirlər barədə ətraflı məlumat verib.

Brifinqdə təqdimatla çıxış edən COP29 Azərbaycan Əməliyyat Şirkətinin nəqliyyat departamentinin direktoru Orxan Mahmudlu qeyd edib ki, ölkəmizin indiyə qədər evsahibliyi etdiyi ən irimiqyaslı tədbir olan COP29-a təşkilati hazırlıq işlərinin tələb etdiyi spesifik yanaşma həmin nəqliyyat sahəsində icra olunan tədbirlərə də şamil olunub. Belə ki, bu istiqamətdə müvafiq plan və konsepsiyanın hazırlanmasına bu ilin fevralından sentyabr ayına qədər hazırlandığı diqqətə çatdırılıb. Konsepsiya COP29 müddətində təhlükəsiz və operativ qaydada qonaqların hava limanından konfrans məkanına və əks-istiqamətdə daşınması, şəhər daxilində sərbəst hərəkətinin təmin olunması, paytaxtda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi kimi elementləri özündə ehtiva etdiyini bildirən O.Mahmudlu Bakı şəhərində fəaliyyət göstərəcək nəqliyyat qovşaqları barədə də ətraflı məlumat verib. Çıxışda həmçinin COP29 dövründə şəhərdə hərəkət edəcək xüsusi COP29 nəqliyyat vasitələri, xüsusi marşrutlu konfrans avtobusları, yüzlərlə xüsusi taksi və ekspres ictimai avtobusların fəaliyyəti, eləcə də COP29 xüsusi zolaqlar üzrə hərəkət qaydaları barədə də geniş məlumat verilib.

Daha sonra çıxış edən AYNA-nın İdarə Heyətinin sədri Anar Rzayev COP29-da iştirak məqsədilə paytaxta səfər edəcək qonaqların sayı nəzərə alınaraq şəhər sakinlərini ictimai nəqliyyatdan istifadə etməyə çağırıb. O həmçinin həmən günlərdə hava limanı istiqamətində hərəkət edəcək vətəndaşları alternativ olan Zığ şossesindən istifadə etməyi də tövsiyə edib. A. Rzayev qeyd edib ki, COP29 günlərində hava limanından iki istiqamətdə - 28 May metrosu və Əhmədli metrosu, ictimai ekspres avtobuslar fəaliyyət göstərəcək, həmçinin konfrans günlərində Bakıda avtobusların marşrut xətlərində müəyyən dəyişikliklər olacaq, bununla əlaqədar vətəndaşların qarşıdakı günlərdə məlumatlandırılacağını əlavə edib.

Daxili İşlər Nazirliyinin (DİN) Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin (NİİM) rəisi Namidan Piriyev isə çıxışında COP29 günləri müddətində şəhərin müxtəlif istiqamətlərindən giriş və çıxışlarla bağlı məlumat verib. O qeyd edib ki, qlobal əhəmiyyətli bu tədbirin ölkəmizə səfər edəcək yüksəksəviyyəli qonaqların müşayiəti və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə tədbirin gedişatından asılı olaraq paytaxtın bəzi əsas küçə və prospektlərində fasilələrlə məhdudiyyətlər tətbiq olunacaq, lakin yolların bağlanmasına zərurət yoxdur. Biz sadəcə vətəndaşlarımıza tədbirin miqyasını nəzərə alaraq şəxsi nəqliyyat vasitələrindən az istifadə etməyi tövsiyə edirik.

Tədbirin sonunda media nümayəndələrini maraqlandıran sualların cavablandırılması üçün sual-cavab sessiyası keçirildi.

Xatırladaq ki, cari ay ərzində COP29 tarixlərində nəqliyyatın idarəedilməsi sxemlərinin sınaqdan keçirilməsi məqsədilə bir sıra genişmiqyaslı monitorinqlər keçirilib. Nəqliyyat monitorinqləri zamanı COP29-a məxsus avtobus və avtomobillər, yanğınsöndürümə və təcili tibbi yardım maşınları, eləcə də yüzlərlə COP29 könüllüsü cəlb edilməklə müxtəlif ssenari və istiqamətlər üzrə nəqliyyatın hərəkəti uğurla sınaqlardan keçirilmişdir.

Növbəti nəqliyyat monitorinqi isə 3 noyabr tarixində saat 11:00-dan 14:00-dək keçiriləcək. Monitorinq tədbirləri Heydər Əliyev, İstiqlaliyyət, Nərimanov, Xətai, Tbilisi, Azadlıq və Neftçilər prospektləri, eləcə də Lermontov, Teymur Elçin, Niyazi, Nizami, Yusif Səfərov, Mikayıl Hüseynov, Rəşid Behbudov, Xəqani Rüstəmov, Puşkin, Abdulla Şaiq, Nizami, İzmir, Bakıxanov küçələri, həmçinin Mərdəkan, Zığ və Aeroport şoselərini əhatə edəcək. Sözügdən müddətdə qeyd edilən yollarda nəqliyyatın hərəkətinə tətbiq ediləcək məhdudiyyətlər nəzərə alınaraq sürücülərdən alternativ yollardan və ictimai nəqliyyat vasitələrdən istifadə edilməsi xahiş olunur.

# Ötən ay COP29-la bağlı 11 saxta informasiya resursu bloklanıb

**Hazırda COP29 tədbirləri ilə bağlı müxtəlif saxta resursların yaradılması müşahidə olunur. Onlardan bir qismi informasiya manipulyasiyasına hədəflənmiş resurslar olsa da, bir çoxu kiberdələduzlar tərəfindən yaradılmış saxta resurslardır.**

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən (XRİTDX) bildirilib.

Məlumata görə, kiberdələduzlar qeydiyyat, eləcə də tədbir çərçivəsində müxtəlif iş yerlərinin açılması ehtimalından sui-istifadə edərək məşğulluq platformalarında saxta məlumatlar yerləşdirməkdədirlər.




"Oktyabr ayı ərzində idarəetmə mərkəzi ilə birgə 11 belə saxta informasiya resursu aşkarlanaraq ölkə üzrə bloklanması təmin edilib. Hal-hazırda digər dövlət qurumları ilə yanaşı, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti də COP29-la bağlı imzalanmış "Ev sahibi ölkə" sazişinin icrasının təmin edilməsinə cəlb olunub. Qeyd olunan sazişdə tədbirlərin keçiriləcəyi dövr ərzində hökumətin kifayət qədər ciddi öhdəlikləri qeyd olunub. Xidmət üzərinə düşən öhdəlikləri Əməliyyat Şirkəti ilə birlikdə uğurla həyata keçirmək və belə mötəbər tədbirin yüksək səviyyədə başa çatması üçün bütün lazımi tədbirləri görəcək", - deyə XRİTDX-nin məlumatında vurğulanıb.

# GDU-da COP29-a həsr edilmiş konfrans keçirilmişdir

**Gəncə Dövlət Universitetində (GDU) "Qlobal iqlim dəyişmələrinin canlı aləmə təsiri və onların aradan qaldırılması yolları" mövzusunda elmi konfrans keçirilmişdir.**





İştirakçılar öncə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzmüş, xatirəsinə dərin ehtiramlarını bildirmişlər. COP29 və "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş videoçarx nümayiş etdirildikdən sonra konfrans işinə başlamışdır. Tədbiri giriş sözü ilə universitetin elm və innovasiyalar üzrə prorektoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə açaraq Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövrlərində Azərbaycanda ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması prioritet məsələ olduğunu qeyd etmişdir. Bildirmişdir ki, Ulu Öndərin bu uzaqgörən siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə indi də davam edir, Azərbaycanda ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin mənfi təzahürlərinin qarşısının alınmasına xüsusi diqqət verilir: "Ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası elan olunması, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü, ardıcıl dövlət siyasətindən xəbər verir". Pərvin Kərimzadə onu da diqqətə çatdırmışdır ki, Azərbaycan hər zaman qlobal çağırışlara çevik reaksiya verən və təşəbbüslərlə çıxış edən ölkələr sırasında mühüm yer tutur: "Bu baxımdan noyabr ayında COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın verilməsi ölkəmizin dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in fəal iştirakçılarından biri kimi tanınmasının və Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir".

GDU-nun Ekologiya və təbiəti mühafizə kafedrasının müdiri, professor Sevda Əhmədova isə çıxışında işğaldan azad olunmuş ərazilərdə aparılan elmi-tədqiqatlardan söhbət açmışdır. Bildirmişdir ki, 30 il ərzində Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qarabağın flora və faunası məhv edilib, kənd təsərrüfatı ciddi ziyan görüb: "44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimiz "boz zona"nın "yaşıl zona"ya çevrilməsinə imkan yaradıb". Professor "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təbiətin qorunmasına töhfə vermək, ətraf mühiti sağlamlaşdırmaq və yaşıllıqları artırmaq məqsədilə universitetdə keçirilən silsilə tədbirlərdən, maarifləndirmə işlərindən və tələbələrin iştirakı ilə ağacəkmə aksiyalarından da söz açmışdır.

Elmi konfransda universitetin Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Vaqif Novruzov, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru İbrahim Cəfərov, GDU-nun Azad Həmkarlar İttifaqı Komitəsinin sədri Afaq Qasımova, Kimya-biologiya fakültəsinin dekanı İsfəndiyar Alverdiyev çıxış edərək COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyətindən danışmış, qlobal iqlim dəyişmələrinin canlı aləmə təsirindən və onların aradan qaldırılması yollarından bəhs etmişlər.

Elmi konfrans plenar məruzələrlə davam etmişdir. Ümumdünya Təbiəti Mühafizə Fondu Azərbaycan nümayəndəliyinin direktoru Elşad Əsgərov, Azərbaycan Texnologiya Universitetinin kafedra müdiri, professor Əhəd Nəbiyev, Ətraf mühitin mühafizəsi kafedrasının müdiri, professor Elşad Məmmədov, AR Elm və Təhsil Nazirliyi Torpaqşünaslıq və Aqrokimya İnstitutunun dosenti Azad Kərimov, AMEA-nın Gəncə bölməsinin əməkdaşı Elnur Həsənov, Azərbaycan Dövlət Aqrar Universitetinin əməkdaşı Mədinə Abışova və GDU-da ekologiya ixtisası üzrə təhsil alan tələbələrin məruzələri dinlənilmişdir.

Tədbir ağacəkmə aksiyası ilə yekunlaşmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## *Dövlət Xidməti:*

# COP29 trafikinin kiberhücumlara və anomal hadisələrə qarşı mütəmadi monitorinqi təşkil edilib

**COP29 ilə əlaqəli yaradılmış müxtəlif informasiya resursları əməliyyat mərkəzinin mütəxəssislərinin müraciətinə əsasən, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən informasiya təhlükəsizliyi üzrə auditdən keçirilib, müvafiq məlumatlar və tövsiyələr Əməliyyat Şirkətinə təqdim olunub.**

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən (XRİTDX) bildirilib.

"Tədbirin yüksək səviyyədə təşkili üçün əsas informasiya ehtiyatı "COP29.az" və hazırda 800-dən çox istifadəçisi olan elektron poçt xidməti xüsusi olaraq dövlət hostinq və mail sisteminə miqrasiya edilib və xidmət tərəfindən 24/7 rejimində monitorinqi həyata keçirilməkdədir. Bununla yanaşı, "AzStateNet" dövlət şəbəkəsi üzərindən keçən COP29 trafikinin kiberhücumlara və anomal hadisələrə qarşı mütəmadi monitorinqi təşkil edilib. İnternet trafikinin kiberhücumlarından qorunmanı daha təkmil həyata keçirmək üçün xidmətin əməkdaşları Almaniya Federativ Respublikasında bir həftəlik xüsusi təlim və təcrübə mübadiləsinə cəlb ediliblər", - deyə Dövlət Xidmətinin məlumatında qeyd olunub.

# COP29 Azərbaycan Əməliyyat Şirkəti "AzStateNet" dövlət şəbəkəsinə qoşulub

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə yanaşı, bir sıra dövlət qurumları, o cümlədən Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin üzərinə mühüm vəzifə və öhdəliklər düşür.**



Bununla bağlı işlərin əlaqələndirilmiş formada həyata keçirilməsini təmin etmək məqsədilə xidmətdə aidiyyəti qurumların nümayəndələrindən ibarət geniştərkibli işçi qrupu yaradılıb. Hazırda işçi qrupu tərəfindən hazırlanmış tədbirlər planı üzrə işlər uğurla həyata keçirilir.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən (XRİTDX) bildirilib.

Məlumata əsasən, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən COP29 Azərbaycan Əməliyyat Şirkətinin Ağ Şəhər ərazisində yerləşən ofisinə etibarlı və dayanıqlı, genişzolaqlı internet xidmətlərinin təşkili üçün iki fərqli istiqamətdən fiber-optik kabel xətləri çəkilib və həmin mərkəzin "AzStateNet" dövlət şəbəkəsinə qoşulması təmin edilib.

"Mərkəzin digər əlaqəli sahələri və tədbirin keçirildiyi zonalar da fəaliyyət müddəti ərzində, etibarlı və dayanıqlı, habelə təhlükəsizlik parametrləri üzrə monitorinq olunan "AzStateNet" internet şəbəkəsi ilə təmin olunub. COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisləri, ekspertləri ilə qarşılıqlı müzakirələrə və razılaşmalara əsasən, tədbirin keçiriləcəyi məkanda quraşdırılmış avadanlıqların və xidmətlərin həm tədbirdən əvvəl, həm də tədbir müddətində daxildən və xaricdən edilə biləcək kiberhücumlardan qorunması məqsədilə birgə tədbirlər görülür", - deyə XRİTDX-dən bildirilib.

## *"Cumhuriyet" qəzeti:*

# COP29 insan sağlamlığı və planetin gələcəyi baxımından ilin əsas hadisəsidir

**Türkiyənin aparıcı media orqanlarından biri olan "Cumhuriyet" qəzeti BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) gündəliyi və əhəmiyyəti barədə oxuculara məlumat verib.**

AZƏRTAC xəbər verir ki, nəşrdə "yaşıl texnologiya"lar və iqlim dəyişikliyi ilə mübarizədə ayrı-ayrı dövlətlərin addımlarının müsbət qiymətləndirilməsinin zəruriliyi vurğulanır.

Qəzet öz oxucularına bu yay dünyada demək olar ki, hər gün qeydə alınan anomal istiləri xatırladıb. Nəşr qeyd edir: "İqlim dəyişikliyi insanların içməli suya çıxışını çətinləşdirir, quraqlıqlar artır və havanın keyfiyyəti pisləşir".

Materialda qeyd olunur: "İnkişaf etməkdə olan ölkələrə verilən iqlimin maliyyələşdirilməsi vədlərinin tam yerinə yetirilməməsi baxımından 2024-cü il iqlim dəyişikliyi gündəliyi üçün heç də yaxşı il deyil. Eyni zamanda "yaşıl texnologiya"ların və ayrı-ayrı ölkələrin səylərinin iqlim gündəliyinə müsbət töhfəsini qeyd etmək lazımdır. Bu kontekstdə COP29-u istənilən ekoloji kursa doğru yönəlmək üçün ilin son fürsəti adlandırmaq heç də yanlış olmazdı".

Qəzet oxuculara Bakıda keçirilən qlobal sammitin gündəliyində duran əsas məsələlər, o cümlədən Milli Səviyyədə Təyin Edilən Töhfələrin (NDC) müzakirəsi barədə məlumat verib və diqqəti COP29-da Türkiyə pavilyonuna çəkib.

Nəşr vurğulayır ki, COP29 haqlı olaraq insan sağlamlığı və planetin gələcəyi baxımından ilin əsas ekoloji hadisəsidir.



# Şanlı Zəfərin Böyük qayıdış mərhələsi

## Qarabağ və Şərqi Zəngəzura indiyədək 2263 ailə, 8660 nəfərin köçürülməsi ölkəmizin iqtisadi qüdrətinin bariz təcəssümüdür

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin hərb meydanında Müzəffər Sərkərdə olması ilə yanaşı, diplomatik cəbhədə də güclü siyasətçi olması öz təsdiqini tapdı. Dövlət başçımız 44 gün ərzində informasiya sahəsində də Azərbaycan xalqının haqq səsi oldu, cəsarətlə, qətiyyətlə bütün xarici təzyiqlərə sinə gərdi və mübarizlik rəmzinə çevrildi. Xankəndidə keçirilən hərbi parad isə Azərbaycanın suverenliyinin bərpasının dönməzliyinin əlaməti idi.

Zəfərimizdən sonra dünyaya car çəkən Ermənistana çoxları havadarlıq etməyə başladı. Hətta Azərbaycana qarşı indiyədək olmayan çirkin kampaniyalara start verdilər. Fransa başda olmaqla, Qərbin bəzi dövlətləri Azərbaycanın Xankəndidə yaşayan ermənilərə qarşı "humanitar fəlakət" həyata keçirdiyini də iddia etdilər.

Amma müdrik siyasətçi kimi İlham Əliyev bu dəfə də dünyaya əsl həqiqətləri açıqladı və 2023-cü il aprelin 23-də Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə Azərbaycanın sərhəd, ərazi bütövlüyünü təmin etmiş oldu.

Bundan sonra da Qarabağdakı qondarma rejimin silahlı dəstələri terrorlar, təxribatlarla Azərbaycanı hədələməkdən çəkinmirdilər. İlham Əliyev isə onlara dəfələrlə xəbərdarlıq etsə də, öz əməllərindən əl çəkmədilər. Nəhayət, 2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusu erməni təxribatının qarşısını almaq məqsədilə Qarabağda lokal xarakterli antiterror tədbirləri həyata keçirməyə başladı. Cəmi 23 saat davam edən antiterror tədbirləri nəticəsində separatçılar ağ bayraq qaldıraraq təslim olduqlarını bəyan etdilər.

2023-cü il oktyabrın 15-də Azərbaycan tarixinə daha bir şanlı səhifə yazıldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycan bayrağını ucaltdı. Bununla da Qarabağda separatizmin kökü birdəfəlik kəsildi və Azərbaycanın suverenliyi tam bərpa olundu. Azərbaycan Qarabağa, Şərqi Zəngəzura qovuşdu. Azərbaycan Ordusu Xocalı qurbanlarının, müharibədə qətlə yetirilmiş günahsız mülki əhalimizin, şəhidlərimizin qisasını döyüş meydanında aldı.

### Qarabağ və Şərqi Zəngəzurda yeni həyat

Bu qələbədən sonra Azərbaycanın tarixində yeni inkişaf səhifəsi açıldı. Azad edilmiş ərazilərə tez-tez səfərləri ilə Prezident İlham Əliyev sevincini xalq ilə bölüşməklə yanaşı, Qarabağı və Şərqi Zəngəzuru sürətlə bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirdi.







Hazırda azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə geniş inşaat işləri gedir. Doğma yurdun hər qarışında tikinti bumu yaşanır. Yeni-yeni infrastrukturlar - xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, avtomobil və dəmir yolları, körpülər, tunellər tikilir.

Artıq xeyli vaxtdır ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası reallaşmaqdadır. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Böyük qayıdış proqramı yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş əraziləri ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin indi böyük dövlət xadimi və Azərbaycan xalqının lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması idi. Bu gün həmin missiya da uğurla reallaşmaqdadır.

Qarabağ və Şərqi Zəngəzuru "dəmir yumruq"la alan Müzəffər Ali Baş Komandan İlham Əliyev artıq Zəfərimizdən ötən 4 il müddətində bu ərazilərdə misli görünməyən quruculuq işlərini həyata keçirməkdədir. Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycan dövlətinin prioritet fəaliyyət istiqamətlərindəndir.

Onu da deyək ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır və 2024-cü ildə bu məbləğ 4 milyard manat nəzərdə tutulub.

Hər gün demək olar ölkəmizin müxtəlif istiqamətlərindən köç karvanı Qarabağa, Şərqi Zəngəzura yola salınır. Həyata keçirilən böyük layihələrin nəticəsi olaraq Qarabağda və Şərqi Zəngəzurda bərpa edilmiş yaşayış məntəqələrinin və daimi yaşamaq üçün bu yerlərə qayıdanların statistikasına nəzər yetirək: Ağalı kəndi 175 ailə, 871 nəfər, Talış kəndi 20 ailə, 90 nəfər, Füzuli şəhəri 823 ailə, 3136 nəfər, Laçın şəhəri 570 ailə, 2090 nəfər, Zabux kəndi 217 ailə, 823 nəfər, Şuşa şəhəri 220 ailə, 823 nəfər, Xocalı şəhəri 46 ailə, 179 nəfər, Sus kəndi 59 ailə, 215 nəfər, Cəbrayıl şəhəri 133 ailə, 433 nəfər.

Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzura indiyədək 2263 ailə, 8660 nəfər köçürülüb.

Böyük Qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq.

Tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu da tamamilə yenidən qurulub istifadəyə veriləcək. Hər iki iqtisadi rayonda tikinti-quruculuq işləri ilə paralel olaraq yolların da yenidən qurulması, körpü və tunellərin tikintisi həyata keçirilir. Ümumiyyətlə, azadlığa qovuşmuş ərazilərimizdə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulur. 130-dan çox tunel və körpü - 40 tunel və 90 körpü inşa edilir.

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrə nəzər yetirsək görərik ki, bəlkə də, böyük dövlətlərin bir neçə il ərzində görə bilmədikləri işləri Azərbaycan cəmi 4 ildə reallaşdırıb. Bu ərazilərdə hava limanları, yaşayış məntəqələri, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri və sosial-iqtisadi infrastrukturların yaradılması dünyanın diqqətini cəlb edir.

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

ZƏFƏR gündəliyi

**3-4 noyabr 2020-ci il**

# İlham ƏLİYEV: "Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik"

**Noyabrın 3-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutublar.**



Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu və 2 ədəd sursatla dolu yük maşını məhv edilib və sıradan çıxarılıb.

### Düşmənin taktiki pilotsuz uçuş aparatı məhv edilib

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenidən atəşə tutublar.

Saat 00:25-dən 04:45-dək Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə məruz qalıb.

Saat 09:50-də cəbhədə uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

### İlham Əliyev Vladimir Putinlə telefonla danışıb



Noyabrın 2-də Prezident İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları ilə bağlı məsələlər, döyüş bölgəsində vəziyyət müzakirə edilib.

### Ağdam və Ağcabədidə mülki infrastruktur artilleriya atəşinə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Ağdam və Ağcabədi rayonlarının kəndlərindəki mülki infrastrukturu artilleriya atəşinə tutublar.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

### Düşmənin hücum cəhdinin qarşısı qətiyyətlə alınıb

Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb və o, ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib.

### Xankəndi yaxınlığında düşmənin iki sursat anbarı məhv edilib

Bölmələrimizin gördüyü tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin Xankəndi yaxınlığında yerləşən daha iki sursat anbarı məhv edilib.

### Düşmənin tank bölmələri döyüş meydanından qaçmağa məcbur olub

Ermənistan silahlı qüvvələri Füzuli şəhərini və ətraf kəndləri "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutublar.

Cəbhənin Xocavənd istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri düşmənin tank bölmələrini döyüş meydanından qaçmağa məcbur ediblər.

Bölmələrimizin dəqiq atəş zərbələri ilə düşmənin bir neçə tankı döyüş heyəti ilə birlikdə məhv edilib.

Müdafiə Nazirliyi düşmən tanklarının məhv edilməsi anlarını əks etdirən videosüjet yayıb.

Günün ikinci yarısında cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin üç ədəd topu məhv edilib.

### Motoatıcı alayın komandiri polkovnik Qor İşxanyan məhv edilib

Xocavənd istiqamətindəki döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının mövqelərindəki yeraltı sığınacaqların atəşə tutulması nəticəsində xeyli sayda şəxsi heyət məhv edilib.

Azərbaycan Ordusunun bu istiqamətdə həyata keçirdiyi tədbirlər nəticəsində motoatıcı alayın komandiri polkovnik Qor İşxanyan da məhv edilib.

### Düşmənin 2 "T-72" tankı, 3 "D-30" haubitsa topu, 1 zenit qurğusu məhv edilib



**Noyabrın 4-də** gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Döyüş əməliyyatları davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd "T-72" tankı, 3 ədəd "D-30" haubitsa topu, 1 ədəd "Zastava M-55" zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılıb.

### Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib

Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib. Dövlət başçısı özünün "X" hesabında paylaşım edərək bildirib:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Ağdam və Tərtər artilleriya atəşinə tutulub


İlham Əliyev
Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam rayonunun kəndlərini intensiv artilleriya atəşinə tutub. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

Tərtər şəhəri və rayonun Şıxarx qəsəbəsi Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşin tutulub.

### Düşmənin xüsusi hazırlanmış "M-55" zenit qurğusu məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin hərbi texnikalarının sıradan çıxarılması üzrə fəaliyyətlər davam etdirilib.

Cəbhənin Xocavənd istiqamətindəki yüksəkliklərdən birinə çıxarılmış Ermənistan silahlı qüvvələrinin 1 ədəd "M-55" zenit qurğusu dəqiq atəşlə məhv edilib.

1955-ci ildə istehsal edilmiş, yüngül zirehli çoxməqsədli transportyor üzərində quraşdırılmış 20 mm-lik 3 topdan ibarət zenit qurğusu aşağı hündürlükdə uçan hədəfləri və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulub.

### İlham Əliyev: "Biz öz torpağımızda döyüşürük"



Prezident İlham Əliyev İspaniyanın "EFE" informasiya agentliyinə müsahibə verib.

Cəbhədəki vəziyyəti dəyərləndirən dövlət başçısı deyib ki, Azərbaycan Ordusunun üstünlüyü davam edir: "Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik".

Atəşkəsin elan olunmasına və savaşın dayandırılmasına gəlincə isə Prezident deyib ki, Ermənistan elan edilmiş humanitar atəşkəs rejimini hər dəfə pozaraq dinc əhalini hədəfə alıb. Belə olan halda Azərbaycan üçün başqa yol qalmayıb: "Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir".

Prezident vurğulayb ki, məhz bu səbəbdən də Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyincə dayanmayacaq.

### Zəngilanda düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb.

Ciddi döyüş itkiləri verən düşmənin kəşfiyyat-diversiya qrupu geri çəkilməyə məcbur edilib.

*R.BAXŞƏLİYEV, "Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamenti İrəvanın siyasi gündəliyindən çıxış edir

**"Avropa Parlamentinin ölkəmizə qarşı çirkin qarayaxma kampaniyası davam edir. Parlamentin deputatları kim daha çox özünü erməni mövqeyindən göstərəcək və ya kim Azərbaycana qarşı qarayaxma kampaniyasında fəal olacaq deyə sanki bir-biri ilə yarışa çıxıblar".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Tural Gəncəliyev deyib. O bildirib ki, ilk növbədə Avropa Parlamentində müzakirələr zamanı səsləndirilənlər xüsusilə COP29 sessiyasına qarşı açıqlamalar, böhtanlar və yersiz bəyanatlar olur. Çıxış edənlərin hər birinin COP29 sessiyasına qarşı nə qədər qərəzli, əsassız fikirlər söylədiyinin bir daha şahidi oluruq. Avropa Parlamentinin üzvləri COP29 sessiyasını Azərbaycanda insan hüquqları və ermənilərin hüquqları kimi məsələlər ilə qarışdırmağa cəhd edərək, ölkəmizə qarşı əsassız ittihamlar səsləndirirlər. "Azərbaycanda insan hüquqlarının pozulmasından dəm vuran deputatlar keçmiş azərbaycanlı məcburi köçkünlər, onların vəziyyəti, o cümlədən hazırda Qərbi Azərbaycan İcmasının üzvləri olan insanların hüquqları haqqında bir kəlmə də danışmırlar. Bu, onların nə qədər ikiüzlü, riyakar siyasət aparmasını göstərir. Azərbaycanla Avropa İttifaqı arasında neft kontraktlarının dayandırılmasını istəyən bu deputatlar xarici siyasət məsələlərindən nə qədər kənar olduqlarını göstərir, onlar yersiz şəkildə müdaxilələr, çağırışlar edərək öz aləmlərində Azərbaycana təzyiq göstərə biləcəklərini düşünürlər", - deyə T.Gəncəliyev əlavə edib.

Deputat qeyd edib ki, onlar Avropa İttifaqının özünün Azərbaycanla neft və alternativ enerji sahəsində sazişlərin bağlanmasının təşəbbüskarı olduğunu anlamaq istəmirlər. Avropa İttifaqı Azərbaycanın enerji resurslarının bu qitəyə nəql olunmasında əsas maraqlı tərəfdir. Bütün bunlar bir daha göstərir ki, Avropa Parlamentinin deputatları erməni havadarlarının və onlarla əlbir olan ölkələrin siyasi maraqlarından çıxış edirlər. Burada, xüsusilə, Fransanın və onun müttəfiqlərinin izi hiss olunur. Amma Avropa Parlamentinin bu siyasəti yeni deyil, hələ 1990-cı illərin əvvəllərindən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan bu təşkilat hər zaman öz riyakar üzünü göstərib.

T.Gəncəliyev vurğulayıb ki, həm Qarabağdan, həm də Qərbi Azərbaycandan olan yüz minlərlə azərbaycanlının fundamental hüquqları pozulanda, bir kəlmə belə danışmayan Avropa Parlamenti üzvləri indi "yüz min" erməninin hüquqları haqqında danışır və bunu ölkəmizə qarşı qərəzli şəkildə ifadə edir: "Bu da Avropa Parlamentinin insan hüquqlarında nə qədər selektiv, diskriminativ olduğunu, istədikləri vaxt insan hüquqlarından danışdıqları, azərbaycanlılara gəldikdə isə bu hüquqları tanımadıqlarını göstərməklə onların riyakarlığını sübut edir. Ancaq biz doğma torpaqlarımızdan, milli maraqlarımızdan bir addım da geri çəkilməyəcəyik. Bunu Avropa Parlamentinin deputatları yaxşı dərk etməlidirlər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



## BMT-dən dünya ölkələrinə çağırış

### Ali qurum jurnalistlərə qarşı törədilən cinayətlərə görə cəzasızlığa son qoyulmasını tələb edib

**Dünən dünya "Jurnalistlərə Qarşı Cinayətlərə görə Cəzasızlığa Son" Beynəlxalq Günü qeyd edilib.**







Xatırladaq ki, 2013-cü ildə BMT Baş Assambleyası özünün 68-ci sessiyasında 68/163 saylı qətnamə qəbul edərək, hər il noyabrın 2-ni "Jurnalistlərə Qarşı Cinayətlərə görə Cəzasızlığa Son" Beynəlxalq Günü elan edilməsinə qərar verib.

Qətnamə üzv dövlətləri cəzasızlıqla mübarizə üçün konkret tədbirlər görməyə çağırıb. Bu tarix 2013-cü il noyabrın 2-də Malidə öldürülən iki fransız jurnalistin xatirəsinə ehtiram kimi seçilib. Bu əlamətdar qətnamə media işçilərinə qarşı istənilən hücumları və zorakılıq aktlarını pisləyir.

Bundan əlavə, qətnamə üzv dövlətləri jurnalistlərə və media işçilərinə qarşı zorakılığın qarşısını almaq üçün əllərindən gələni etməyə, onlara qarşı cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasını və məhkəmə qarşısına çıxarılmasını təmin etməyə və qurbanların adekvat hüquqi müdafiə vasitələrinə çıxışını təmin etməyə səsləyib.

Qətnamə həmçinin dövlətləri jurnalistlərin müstəqil şəkildə və əsassız müdaxilə olmadan öz işlərini yerinə yetirmələri üçün təhlükəsiz və əlverişli mühit yaratmağa dəvət edir.

2022-2023-cü illərdə UNESCO jurnalistlərin, media işçilərinin və sosial media məzmun istehsalçılarının 162 qətlini qeydə alıb. Bu barədə "Jurnalistlər böhran və fövqəladə hallar cəbhəsində" adlı hesabatda deyilir. Hesabatın müəllifləri bildirirlər ki, bu, əvvəlki iki illə müqayisədə 38 faiz çoxdur.

Hesabatda qeyd olunur ki, jurnalist qətllərinin sayının artması qismən silahlı münaqişələrin olduğu ölkələrdə media işçilərinin ölüm hallarının artması ilə bağlıdır. Lakin bu ölkələrdən kənarda 2022-ci ildə baş vermiş 60 insidentlə, UNESCO tarixində ən yüksək göstərici olmaqla, jurnalistlərin qətlində əhəmiyyətli artım qeydə alınıb.

Təşkilatın məlumatına görə, Latın Amerikası və Karib hövzəsi jurnalistlərin ən çox qətlə yetirildiyi region olaraq qalır.

#### Cəzasızlıq zorakılığa səbəb olur

BMT-nin Baş katibi Antonio Quterreş müraciətində bildirib ki, qlobal miqyasda hər 10 jurnalist qətlindən 9-u cəzasız qalır və cəzasızlıq daha da ağır zorakılığa səbəb olur: "Keçən ay qəbul edilmiş Gələcək Paktı silahlı münaqişələrdə çalışan jurnalistlərə, media işçilərinə və əlaqəli personala hörmət etməyə və mühafizəyə çağırır. Hökumətləri jurnalistləri qorumaq, onlara qarşı cinayətləri araşdırmaq və günahkarları təqib etmək üçün təcili tədbirlər görərək bu öhdəlikləri həyata keçirməyə çağırıram".

2006-2024-cü illər arasında dünyada 1700-dən çox jurnalist öldürülüb. Media işçilərinə qarşı törədilən cinayətlərə görə cəzasızlığa son qoyulması söz azadlığının və hər kəsin informasiyaya çıxışının təmin edilməsi üçün zəruri şərtdir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türk deyib: "İnsanlara həqiqəti deyən və silahlı münaqişələrin mahiyyətini açan jurnalistlər insan hüquqlarının əsl müdafiəçiləridir". Onun sözlərinə görə, jurnalistlərə qarşı hücumlar söz azadlığını pozur və ictimaiyyəti tənqidi informasiya əldə etməkdən məhrum edir.

#### Qadın jurnalistlərə qarşı təhdidlər

Jurnalistlərin öldürülməsi media senzurasının ən ifrat formasıdır. Mətbuat işçiləri həm də saysız-hesabsız təhdidlərə məruz qalırlar, xüsusən də rəqəmsal sahədə.

Bu cür təhdidlər, eləcə də jurnalistlərə qarşı hücumlar qorxu mühiti yaradır, informasiya, fikir və ideyaların sərbəst axınının qarşısını alır.

Mediada çalışan qadınlar xüsusilə təhdid və hücumlara məruz qalırlar. UNESCO-nun bu yaxınlarda dərc etdiyi "Qadın Jurnalistlərə Qarşı Onlayn Zorakılıqda Qlobal Meyillər" adlı sənədə əsasən, sorğuda iştirak edən qadın jurnalistlərin 73 faizi öz işləri ilə əlaqədar onlayn rejimdə hədə-qorxu və təhqirlərə məruz qaldıqlarını bildiriblər.

Jurnalistlərə qarşı törədilən cinayətlərə görə cəzasızlığa son qoyulması günümüzün ən vacib və çətin məsələlərindən biridir. Bu, bütün vətəndaşların söz azadlığının və məlumat əldə etməsinin təmin edilməsi üçün zəruri şərtdir.

Münaqişələrin və digər böhranların sayının artması ilə 2024-cü ilin mövzusu təhlükəli mühitlərdə çalışan jurnalistlərin təhlükəsizliyi, o cümlədən müdafiəsi və təqibi ilə bağlı daha geniş müzakirələri təşviq etmək məqsədi daşıyır.

Bu ilin əsas tədbirləri 6 və 7 noyabr 2024-cü il tarixlərdə Afrika Birliyinin Efiopiyanın paytaxtı Əddis-Əbəbədəki qərargahında keçiriləcək, böhran və fövqəladə vəziyyətlərdə jurnalistlərin təhlükəsizliyinə diqqət yetirəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Qərb Gürcüstanı dirijor çubuğu ilə idarə etməyə çalışır

**"Oktyabrın 26-da Gürcüstanda demokratik, şəffaf və beynəlxalq standartlara uyğun parlament seçkiləri keçirildi. Seçkiləri izləyən beynəlxalq müşahidəçilərin əksəriyyətinin mövqeyi belədir. Mövqeyi fərqlənənlər isə Avropa İttifaqı, ABŞ-dən olanlardır ki, onlardan da başqa çağırışlar gəlir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elman Nəsirov deyib. O bildirib ki, onlar bununla seçki nəticələrinə kölgə salmağa çalışırlar. Eyni zamanda Qərbin Gürcüstanda hakimiyyətə gətirdiyi prezident Salome Zurabişvili tamamilə fərqli mövqedən çıxır edir və birlikdə 37,8 faiz səs toplamış 4 müxalif partiyanı öz səslərindən və mandatlarından imtinaya çağırıb. Onun bu çağırışını Qərb dəstəkləyir. Onlar heç bir halda xalqın seçdiyi, 54 faizə qədər səs toplamış "Gürcü Arzusu" partiyasının qələbəsini həzm etmək istəmirlər. "Bu, gözlənilən idi, çünki bu il mayın 28-də hakim partiya xarici agentlər haqqında qanunun qəbulunda tutduğu mövqeyə görə Qərbin qəzəbinə düçar olmuşdu. ABŞ oxşar qanunu 1938-ci ildə qəbul etmişdir, buna baxmayaraq, Gürcüstana təzyiq göstərmək, hakimiyyəti asılı vəziyyətə salmaq, diktə dili ilə danışmaq üçün bu siyasəti seçmişdi. Qərb Gürcüstanın müstəqil, öz milli maraqlarından irəli gələn siyasət yürütməsini heç bir halda qəbul edə bilmir. Onların düşüncəsinə görə belə olmamalıdır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Qərb düşünür ki, Gürcüstan hakimiyyəti dirijor çubuğu ilə hərəkət etməli və diktə altında fəaliyyət göstərməlidir. Qərblə yaxındırsa, Rusiya və beynəlxalq birliyin digər subyektləri ilə normal münasibətlərdə olmamalıdır. Avropa hansı istiqamətə yönəltsə, o yöndə də siyasət yürütməlidir. Bu yanaşma demokratiya ilə daban-dabana ziddir. Fikir, düşüncə plüralizminin tam əksidir və demokratiyanın fundamental prinsiplərinin üstündən xətt çəkmək anlamına gəlir. Hansı ki Qərb demokratiya məsələlərində Gürcüstanı tənqid edir.

Avropa İttifaqının yarıdan çox dövlətinin seçki nəticələrini şübhə altına aldığını vurğulayan E.Nəsirov xatırladıb ki, onlar təkrar seçkilər ideyasını ortaya atıblar: "Hətta hakimiyyəti zorla devirməyə gedəcəklərini göstərən cürbəcür şüarlar səsləndirirlər. Onlar üçün marionet hakimiyyət lazımdır. Bu baxımdan Kobaxidze hökumətinin həyata keçirdiyi siyasəti həzm edə bilmirlər. Qərb Gürcüstanda Moldovadan sonra ikinci dəfə böyük uğursuzluğa düçar oldu. Moldovada keçirilən seçkilərdə və referendumda xalqın təxminən yarısı Qərb siyasi kursunun əleyhinə səs verdi ki, bunu qətiyyən gözləmirdilər. Bu analoji proses daha kəskin şəkildə Gürcüstanda özünü göstərdi. Qərb fərqindədir ki, artıq demokratiya pərdəsi altında öz geostrateji niyyətlərini həyata keçirmək istəkləri fiaskoya uğrayır. Buna görə də təzyiq və təhdid kampaniyasına başlayırlar".



Deputat hesab edir ki, gürcü xalqı müdrikliyi sayəsində seçkilərdə olduğu kimi, Qərb dairələrinin anti-Gürcüstan siyasətini dəstəkləməyəcəklər. Xalq, əslində, sülhün lehinə səs verdi. Dörd partiyanın niyyəti faktiki olaraq Gürcüstanı ikinci Ukraynaya çevirmək idi. Bu isə Gürcüstan üçün fəlakətdir və bunu bu gün Ukrayna xalqı yaşayır. Gürcü xalqı sülhü seçərək hakim partiyaya səs verdi. Bu partiya çoxtərəfli fəaliyyət göstərərək, milli maraqlara söykənən siyasət həyata keçirir. 12 ildir bu fəaliyyəti xalq dəstəkləyir və bundan sonra da dəstəkləmək niyyətini ortaya qoydu.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## İrəvan təşvişdə: Ermənistanda böyük müharibə başlayacaq

**Ermənistanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdədir. Bütün bunların fonunda Moskva ilə İrəvan arasında vəziyyət daha da kritik həddə alıb. Yəni Ermənistanda anti-Rusiya ab-havası zaman keçdikcə daha da güclənir. İrəvan düşdüyü vəziyyətə görə bir çox xarici dövlət, o cümlədən də əsas müttəfiqi olan Rusiyanı ittiham edir. Elə buna görədir ki, bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır.**

Göründüyü qədərilə rəsmi İrəvan hərbi müttəfiqi Rusiyaya qarşı çıxaraq Qərbin verdiyi vədlərə güvənir. Hər halda Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətdə konkret seçim etdiyi görünür.

Erməni politoloq Stepan Danielyan deyib ki, Ermənistanın hazırkı hakimiyyətinin xarici siyasət kursu yoxdur. Onlar qərarları ani verirlər və bu, xaricdən diktə olunur. Bildirib ki, Ermənistan de-yure Avropa Birliyinə gedir, amma de-fakto artıq BRICS-dədir. Ermənistanın bütün iqtisadi layihələri BRICS-lə bağlıdır. Qonşuları da BRICS-lə əməkdaşlığa can atırlar. Lakin hökumətin fəlakətli səhvlərindən biri Rusiya qoşunlarını Ermənistan-Türkiyə sərhədindən çəkmək olacaq. Hələlik bu qərar verilməyib, amma hakimiyyət Rusiya qoşunlarının Ermənistandan mərhələli çıxarılması imkanlarını istisna etmir.

Danielyan iddia edir ki, Ankara Rusiya qoşunlarının Ermənistanda olmasına öz sərhədinin müdafiəsi kimi baxır, çünki PKK terrorçularının buradan ölkəyə girməyəcəyinə inanır: "Rus ordusunun gedişindən sonra Türkiyə Ermənistan ərazisində antiterror əməliyyatı keçirmək üçün legitim haqq əldə edəcək. Başqa sözlə, rus ordusu təkcə Ermənistanı Türkiyədən yox, həm də Türkiyəni PKK-dan qoruyur. Hazırda Qafqazda Rusiya, İran və Türkiyə arasında konsensus yaranır. Bu ölkələrdən birinin gedişi konsensusu pozacaq. Nəticədə ərazimizdə sözügedən ölkələr arasında böyük müharibə başlayacaq".

Digər erməni politoloq Robert Qevondyan isə qeyd edib ki, Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd Donald Trampın seçilməsi Ermənistanın maraqlarına uyğun deyil. Bildirib ki, Tramp artıq bəyan edib ki, seçiləcəyi təqdirdə Cənubi Qafqaz prioritet olmayacaq, Ukrayna isə sülh naminə Rusiyaya güzəşt etməlidir.

Qevondyanın fikrincə, Tramp iqtisadi amili geosiyasi məqsədlərdən öndə tutur: "Trampın konkret siyasəti iqtisadiyyatla bağlıdır, yəni hər hansı bir regionda iqtisadi imkanlar, çoxlu pul qazanmaq şansları olmasa, bunlar ABŞ-ni maraqlandırmayacaq. Bunu 2020-ci ildə baş verən 44 günlük müharibədə də gördük, ABŞ Cənubi Qafqazı unutmuşdu. Tramp seçilərsə, bu, Ermənistan üçün ciddi problem olacaq. Əlbəttə, heç kim Kamala Harsisin seçiləcəyi təqdirdə Ermənistanın uğur qazanacağını söyləmir, amma o, bizim üçün faydalı ola bilər, bu halda Amerika regionu tərk etməyəcək. Tramp seçilsə, ABŞ-ni regiondan dərhal uzaqlaşdıracaq".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Dünya dəniz nefti erasının başlandığı məkan

### Neft Daşları 75 yaşını qeyd etməyə hazırlaşır

**Əfsanəvi dəniz şəhəri 75 yaşını qeyd etməyə hazırlaşır. Söhbət Neft Daşlarından gedir. Həmin Neft Daşlarından ki, dünyanın dəniz nefti erası oradan başlanıb.**

Neft Daşlarını bəzən mədən-şəhər adlandırırlar. Əslində, bu, bənzəri olmayan bir mədəndir. Burada hasilatın əldə olunması üçün neftçilər estakadalardan dənizin dərin qatlarına nüfuz edirlər.

...Estakadalar sağdan-soldan bir-birinə calanaraq açıq dənizdə müxtəlif istiqamətlərə doğru şaxələnib. Uzaqdan baxanda onlar yollara bənzəyir. Amma bunlar adi yollar deyil. Sularla əhatə olunduqları üçün hər iki yandan polad məhəccərlərlə örtülüb.

Estakadalar boyunca rəngbərəng borular uzanır. Bu yaşıl, mavi, qırmızı, sarı, ağ boruların təyinatları da müxtəlifdir. Biri neft, digəri qaz, üçüncüsü lay suları daşıyır. Başqa biri ehtiyat xətdir. Onlara estakadaüstü kəmərlər də deyirlər. Bir sözlə, bütün bunların hamısını neftçilər özləri daha yaxşı bilirlər.

Neft Daşları eləcə də heç bir şəhərə oxşamayan şəhərdir. "Möcüzələr adası" adını almış bu məkan polad dirəklər üstündə qərar tutan əfsanəvi dəniz şəhəri kimi 75 ildir Yer üzünü heyrətə gətirir. Onun zəngin tarixindən bir neçə səhifəni vərəqləyək: neft dənizin dibindən baş qaldırıb bir hissəsi suyun üzərinə çıxan qara daşlar yaxınlığında müşahidə olunduğundan buranı ilk vaxtlar "Qara daşlar" adlandırıblar. Böyük neft təşkilatçısı Sabit Orucovun, təcrübəli qazma mühəndisi Yusif Səfərovun və kəşfiyyatçı geoloq Ağaqurban Əliyevin təklifi ilə Bakı gəmi təmiri zavodlarında istifadədən silinmiş 7 iritonnajlı gəmi gətirilərək "Qara daşlar"ın yanında basdırılıb. Bundan sonra ərazini "Yeddi gəmi adası" adlandırmağa başlayıblar. Bu qeyri-adi ada Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa və dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrilib.

1948-ci ilin sonunda ilk quyunun qazılacağı yer təyin edilir. 1949-cu ilin əvvəlində Neft Daşlarına Bakı vaqon təmiri zavodunun hazırladığı ilk ev gətirilir. Həmin ilin aprel ayında buruğun, daha sonra qazma avadanlığının quraşdırılmasına başlanır və bu iş tezliklə sona çatdırılır. Kəşfiyyat Qazma İdarəsi rəhbərinin əmri ilə Mixail Kaveroçkin ilk qazma briqadasının ustası təyin edilir. İyunun 24-də isə birinci kəşfiyyat quyusunun qazılmasına başlanır.

Quyudan götürülən nümunələr debiti 100 tona yaxın ilk neft fontanının yaxınlaşmasını xəbər verir. Beləliklə, 1949-cu il noyabrın 7-də Xəzərin açıq qoynunda ilk neft quyusu fontan vurur. Ertəsi gün "YAK-6" kateri ilə buraya SSRİ-nin və Azərbaycanın bir qrup rəhbər işçisi, alim və mütəxəssisi gələrək neftçilərin sevincinə şərik olur.

75 il əvvəlin təqvimindəki 7 noyabr günü sonralar Neft Daşları adını almış mədən-şəhərin "doğum günü" olmaqla bərabər, həm də tarixə dünyada dəniz nefti erasının başlandığı gün kimi düşüb.

75 ildir Neft Daşları işləyir, çalışır, dəlidolu Xəzərin qoynunda fədakarlıq göstərir. Neft verir, qaz verir, Azərbaycanın sərvətini və şöhrətini artırır.

Deyirlər, Neft Daşları nə vaxtsa muzeyə çevriləcək. Ancaq bu barədə danışmaq hələ çox tezdir. Çünki son illər burada onlarla stasionar dəniz özülü, geniş sahəsi olan estakadayanı meydançalar, ümumi uzunluğu 100 metrlərlə ölçülən estakadalar inşa edilib. Bütün qurğuların saz vəziyyətdə olması daim diqqət mərkəzindədir. Odur ki, mütəmadi olaraq yataqların ərazisində cari təmir işləri də həyata keçirilir.

...Bu bənzərsiz məkana hər gün yenə də vertolyotlar enir, gəmilər yan alır. Buradakı bütün qurğu və tikililər kimi onlar da müasirləşib. Yaşının üstünə yaş gələn dəniz şəhərində neftçi nəsilləri dəyişsə də, onun qəhrəmanlıq salnaməsi davam edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Sumqayıtda sənaye sərgisi keçirilib

**Sumqayıt şəhərinin 75 illik yubileyinə həsr olunmuş "İlham Əliyev Sumqayıt şəhərinin sürətli sosial-iqtisadi inkişafının qarantıdır" mövzusunda keçirilən elmi-praktiki konfrans çərçivəsində sənaye sərgisi təşkil olunub.**

Şəhər rəhbərliyinin, aparıcı sənaye müəssisələri nümayəndələrinin iştirak etdikləri sərgidə Sumqayıt Kimya Sənaye Parkının rezidentləri, "Azərikimya" İstehsalat Birliyi, SOCAR Karbamid Zavodu, SOCAR Polimer MMC, ATS FOOD MMC, "Gilan Tekstil" MMC, "Alyans Tekstil" MMC, "Qartal" Tikinti Firması, Bakı Qida və Yağ Fabriki, "El Plastik" MMC, "Fin Plast" MMC, "Çinarlı" MMC, "Araz-L" MMC, Fuad Kimya Servis MMC və "RJ Xemikal" MMC kimi istehsalçılar öz məhsullarını nümayiş etdiriblər.

Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Sumqayıtda yeni sənaye komplekslərinin yaradılması və mövcud müəssisələrin genişləndirilməsi şəhərin sənaye potensialını dəfələrlə artırıb. Sumqayıt tarixi şöhrətini yenidən bərpa edərək regionun mühüm sənaye mərkəzlərindən birinə çevrilib və Azərbaycan iqtisadiyyatında əhəmiyyətli mövqe tutmağa davam edir.

Qeyd edilib ki, bu uğurlar şəhər həyatının bütün sahələrinə sirayət edib. Bu gün Sumqayıtda onlarla müasir tipli ali və orta təhsil müəssisələri, uşaq bağçaları, istirahət mərkəzləri fəaliyyət göstərir. Onların yarıdan çoxu yerli istehsal məhsulları ilə təmir edilib. Sumqayıtın zavod və müəssisələrində istehsal olunan məhsullar sənaye bazarlarında məmnunluqla alınır.

Sonda müəssisə rəhbərləri və şəhər nümayəndələri arasında gələcək perspektivlərlə bağlı fikir mübadiləsi aparılıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Şərqdən Qərbə daşınan yüklərin həcmi artacaq

### Əsas tranzit ölkə isə yenə Azərbaycandır

**Azərbaycan Orta dəhlizin səmərəli fəaliyyəti və yüklərin daşınmasının həcmini artırmaq üçün tərəfdaşlarla əməkdaşlığı genişləndirir. Bu istiqamətdə dəhliz üzərində yerləşən ölkələrlə yanaşı, marşrutdan istifadə edəcək ölkələrlə də danışıqlar aparılır, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunur.**

Müzakirələr zamanı əsas hədəflənən məsələlərdən biri yükgöndərən və yükü qəbul edən tərəflərin maraqlarının uyğunlaşdırılmasıdır. Səbəbi sadədir: tərəflərin istəkləri nəzərə alınmasa, dəhlizə maraq azala bilər. Bunun baş verməməsi üçün yüklərin təhlükəsiz daşınması, daşıma müddətinin azalması, vahid tarifdən istifadə edilməsi, həmçinin gömrük prosedurlarının və digər sənədlərin qeydiyyatdan keçirilməsi məsələlərində məxrəcə gəlinməlidir. Məhz Azərbaycanın bu istiqamətdə göstərdiyi təşəbbüs və səylər tərəfdaşlar tərəfindən yüksək qiymətləndirilir.

İnfrastrukturun texniki cəhətdən təkmilləşdirilməsində də ölkəmiz xüsusən qonşu dövlətlərə dəstək verir. Belə ki, Azərbaycan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun Gürcüstan ərazisindən keçən xəttində aparılan modernləşdirmə işlərində fəal iştirak etmişdir. Nəticədə işlər cari ilin may ayında başa çatmışdır. Bu isə BTQ ilə yükdaşımaların həcminin qısa bir zamanda artmasına imkan yaratmışdır. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və Çin şirkətləri arasında aparılan danışıqlar sayəsində modernləşmədən sonra 5 milyon ton yükburaxma gücündən səmərəli istifadə etmək barədə razılıq əldə olunmuşdur. Məlumat üçün bildirək ki, bu il Çindən Orta dəhliz vasitəsilə 210-dan çox blok qatarı yola salınmışdır. İlin sonunadək isə əlavə 300-dən çox qatarın göndərilməsi gözlənilir.

Yüklərin daşınmasının səmərəliliyini artırmaq üçün görülən işlər ölkəmizə dəhliz vasitəsilə fərqli növ yüklərin daşınmasına geniş imkanlar verir. Bunun üçün idarəetmə mexanizmləri yenidən təşkil edilir ki, yüklərin daşınmasında ləngimə halları olmasın. "ADY Ekspress" və "ADY Konteyner" şirkətlərinin birləşdirilməsinin məqsədi də budur.




Onu da əlavə edək ki, Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri vasitəsilə tranzit daşımalarının səmərəliliyinin artırılması üçün konteyner daşımalarının əhəmiyyəti getdikcə artır. Bu sahədə qabaqcıl beynəlxalq təcrübədən, o cümlədən qonşu Türkiyə, Rusiya, Gürcüstan və Qazaxıstanda tranzit daşımaların səmərəli idarə olunması üzrə mövcud təcrübələrdən istifadə edilməsi vacibdir. O üzdən ADY-də konteynerləşmə və ümumilikdə tranzit daşımaları sahəsində idarəetmənin təkmilləşdirilməsi zərurəti yaranıb. Bu baxımdan dəhlizlər üzrə güclü ekspedisiya xidməti göstərən və dəhlizlərin inkişafına töhfə verəcək şirkətlərin mövcudluğu çox vacibdir.

Azərbaycan Orta dəhlizin imkanlarını daha da genişləndirmək məqsədilə Xəzər dənizinin şərq sahilindəki ölkələrlə də əməkdaşlıq edir. Bu hesaba şərq istiqamətindən başlayıb Azərbaycan üzərindən keçəcək daha bir marşrut açılacaq. Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan marşrutunu nəzərdə tuturuq. Bu marşrutun yaxın üç il ərzində tikilib başa çatdırılması proqnozlaşdırılır. İstifadəyə verildikdən sonra onun üzərindən ildə 8-10 milyon ton yük daşınması mümkün olacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## ADAU auditoriyalarını müasirləşdirir

**Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) Aqronomluq və zoomühəndislik tədris binasında "Agro Food Investments" MMC-nin dəstəyi ilə ərsəyə gələn yeni auditoriyanın açılışı olmuşdur.**

Açılışdan əvvəl keçirilən görüşdə ADAU-nun rektoru Zəfər Qurbanov, Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri İlham Süleymanov və "Agro Food Investments" MMC-nin rəhbəri Vahid Novruzov dayanıqlı kənd təsərrüfatı mütəxəssislərinin yetişdirilməsi və birgə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri barədə fikir mübadiləsi aparmışlar.

Sonra tələbələrin istifadəsinə verilən yeni auditoriyanın açılışını bildirən lent kəsilmişdir. Bildirilmişdir ki, yeni qurulan auditoriya zəruri mebel və texniki avadanlıqla təmin olunub. Auditoriyada dərs tədrisi ilə yanaşı, təlimlərin də keçirilməsi nəzərdə tutulmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan neftinin qiyməti 75 dollara yaxınlaşır

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti bahalaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,95 dollar və ya 1,3 faiz artaraq 74,8 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Azərbaycanın "yumşaq güc"ü: zəngin tarixi irs və modern müasirlik

### Hər ikisi turizmin inkişafı üçün əvəzsiz şərtdir

**Bu gün dünyada turizm sənayesi yaxşı formalaşmış mexanizm və iqtisadiyyatın yüksək gəlirli sahələrindən biridir. Turizmə iqtisadiyyatı stimullaşdıran, əhalinin rifahını artıran, həyat keyfiyyətinə və səviyyəsinə təsir göstərən sahə kimi baxılır. Ona görə də turizm bazarında hər regionun müsbət imicinin yaradılması xüsusi aktuallıq kəsb edir.**

Bu mənada mədəni turizmin nə qədər əhəmiyyətli olduğunu vurğulaya bilərik. Mədəni əlaqələr, tolerantlıq, dünya mədəni irsinin təbliği, yeni mədəni-tarixi marşrutların yaradılması mədəni turizmin uzunmüddətli olmasında böyük rol oynayır. Bu turizm növünün əsas məqsədi ölkənin memarlığını, rəssamlığını, musiqisini, teatrını, folklorunu, ənənələrini, adətlərini, insanların həyat tərzi və üslubunu özündə ehtiva edən mədəniyyət və tarixlə tanışlıqdır. Əslində, mədəni irs olmadan mədəni turizmin inkişafından söz açmaq doğru deyil. Onu da deyək ki, kökündə mədəni irsin dayandığı və gündən-günə yayılan mədəni turizm həm "yumşaq güc"ün ən effektiv alətlərindən biri, həm də turizm iqtisadiyyatının sütunlarındandır.

Məlumdur ki, dünyada iki cür güc var: "sərt" və "yumşaq güc". "Yumşaq güc" mədəniyyət, dəyərlər və ideyalarla yola gətirmək qabiliyyətidir, "sərt güc" isə hərbi qüvvə vasitəsilə fəth etmək və ya məcbur etməkdir. Bu mənada "yumşaq güc"ün əsas xüsusiyyəti sivil fəaliyyətdir. Azərbaycanın "yumşaq güc"ə dayanan tolerant və multikultural siyasət strategiyası son 30 ildə artan inkişaf tempi ilə özünü göstərir.

Ölkəmizdə mədəni turizm üçün potensial yetəri qədərdir. Bu turizmi ehtiva edən Qız qalası, Çıraqqala, İçərişəhər, Şirvanşahlar sarayı, Qobustan qayalıqları, Xudavəng monastrı, Xudafərin körpüsü, Möminə-Xatun türbəsi, Şəki Xan Sarayı, Gəncəsar monastırı, Atəşgah, Heydər Əliyev Mərkəzi, "Alov qüllələri", Xalça muzeyi, Baku Crystal Hall həm tarixi əks etdirən, həm də müasir üslubu ilə ecazkar memarlıq nümunələri kimi diqqət çəkir. Muzeylər, genetik kodumuzu əks etdirən milli muğamımız, multikulturalizm və tolerantlığı özündə daşıyan məkanlar, alman və yəhudilərin bir vaxtlar məskunlaşdığı, eləcə də azsaylı xalqların yaşadığı bölgələr mədəni turizmimizin əsasını təşkil edir. Qeyd edək ki, sadalananlardan əksəriyyəti UNESCO-nun Ümumdünya mədəni irs siyahısına salınıb.

Bu da faktdır ki, Azərbaycanın mədəniyyət potensialının çox hissəsi Bakıda cəmləşib. Bununla belə bölgələrdə də diqqətçəkən, hər bir turistin marağına səbəb ola biləcək yerlər çoxdur. Gəncə, Şəki, Qəbələ, Naxçıvan və Qarabağ bölgəsi bu mənada fərqlənir və o üzdən turistlərin ən çox ziyarət etdikləri bölgələrdir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun mədəni turizm üçün potensialının olduğunu da qeyd etməliyik. Şuşa Qafqazın konservatoriyası olduğu üçün burada mədəni turizmin cazibəsi güclüdür. Ötən 4 ildə Şuşada ard-arda keçirilən beynəlxalq "Xarıbülbül" Musiqi festivalları, TDT-nin Zirvə görüşləri və bu qəbildən olan digər tədbirlərin keçirilməsi gələcəkdə bölgənin turizm üçün destinasiyaya çevrilməsində mühüm rol oynayır. Onu da xüsusi vurğulamaq lazımdır ki, bu gün Şuşa və ətraf rayonlar beynəlxalq arenada daha çox tanınan yerlərdəndir. İllərlə münaqişə zonası olan bölgədən bu gün "yumşaq güc" aləti kimi istifadə etmək fürsətini əldən vermək olmaz. Bunun üçün xaricdən ən məşhur rejissor və aktyor heyətini dəvət edib savaşla bağlı keyfiyyətli bir film çəkib dünyaya nümayiş etdirmək yetər ki, mədəni turizmin sürətli inkişafına və turistlərin artımına nail olunsun.

Azərbaycanın böyük İpək yolu üzərində yerləşməsi də mədəni turizmə təkan verən amillərdəndir.



2016-cı ildə ölkəmizə daha çox turist cəlb etmək üçün beynəlxalq standartlara cavab verən "Aleksandr Düma Qafqazda", "Şərab, mədəniyyət və turizm mübadiləsi", "Azərbaycanda alman izləri". "Azərbaycanda polyak izləri", "Naxçıvanda Nuhun gəmisi" kimi mədəni turizm marşrutlarının tədqiqinə başlanıldı. Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə irəli sürülən "Aleksandr Düma Qafqazda" beynəlxalq mədəni turizm marşrutu Azərbaycan, Gürcüstan və Dağıstanda turizmin inkişafına yönəldilmişdi. "Şərab, mədəniyyət və turizm mübadiləsi" turizm marşrutu isə Bakı-Şamaxı-İsmayıllı-Şəki-Gəncə-Tovuz şəhər və rayonlarını əhatə edirdi. Bakı, İsmayıllı, Gəncə və Tovuzda yerləşən şərab zavodlarında konyak və şərabın satış mağazaları, həmçinin ziyarətçilər üçün dequstasiya zalları da yaradılmışdı. Nə yazıq ki bu pilot layihə pandemiyadan sonrakı dövrdə arzuolunan səviyyədə icra olunmur.

Müşahidələr göstərir ki, əgər turistlər tarixi və mədəniyyətinə görə seçilən ölkələrdən gəlirlərsə, deməli, onlar Azərbaycanı, əsasən, mədəni turizmə görə seçirlər. Bu baxımdan Azərbaycana səfər edənlərin 50 faizindən çoxunun, əsasən, Avropadan olmaları təsadüfi deyil. Amma, məsələn, ərəbləri götürsək, onlar ölkəmizə əsasən istirahət və ekoloji turizm üçün gəlirlər. Ruslar üçün isə əsas şərt restoran şəbəkəsinin keyfiyyətidir.

Bir sözlə, "yumşaq güc" ölkənin tanınmasının ən doğru üsullarındandır. Yaxşı idarə edildiyi halda mədəni turizm tükənmir. Yeri gəlmişkən, 1977-ci ildə kosmosa Yer haqqında təsəvvür üçün göndərilən qızıl valda yer alan 27 musiqi parçasından biri Kamil Cəlilovun balabanda ifa etdiyi "Muğam" kompoziyasıdır. Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti isə dünyada arealına görə ən çox yayılan baletlərdəndir. Böyük fransız yazıçısı Alekandr Düma (ata) Azərbaycanda, paytaxt Bakıda, eləcə də həmin vaxt Nuxa adlandırılan Şəkidə, böyük şairlərin vətəni Şamaxıda olmuş, Atəşgah məbədini ziyarət etmiş və öz təəssüratları haqqında maraqlı bir xatirə yazmışdır. Bu sadalananlar mədəniyyətimizlə bağlı sadəcə bir neçə faktdır və bunları qeyd etməkdə məqsədimiz onu ifadə etməkdir ki, əslində, bütün bunlara malik olan xalq çox rahatlıqla "yumşaq güc"dən istifadə edib dünya mədəni turizmində irəli çıxa bilər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Mədəniyyət



● Qazax Müəllimlər Seminariyası



# Varisliyin maarifçilik nümunəsi

**Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra taleyinə gün doğmuş tarixi binalardan biri də Qazax Müəllimlər Seminariyasıdır. Xatırladaq ki, Qazax Müəllimlər Seminariyasının tarixi 1876-cı ildə Qoridə yaradılmış Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır.**

1879-cu ildə seminariyanın nəzdində Azərbaycan şöbəsi və onun yanında ibtidai məktəb fəaliyyətə başlayıb. Bu şöbənin yaradılmasında həmin dövrdə Azərbaycan ziyalıları arasında böyük nüfuz sahibi olan, çar Rusiyasının Tiflisdəki Canişininin dəftərxanasında tərcüməçi işləyən Mirzə Fətəli Axundzadənin, 1881-ci ildən ömrünün sonunadək Zaqafqaziya müftisi olmuş Mirzə Hüseyn Əfəndi Qayıbzadənin və onun yaxın dostu, məsləkdaşı Şeyxülislam Əbdüssəlam Axundzadənin böyük rolu olmuşdur.

Seminariyanın Azərbaycan şöbəsinə ilk dəfə 32 nəfər qəbul edilmişdi. Bunlardan 24 nəfəri A.O.Çernyayevski tərəfindən yerlərdən seçilərək seminariyaya gətirilmiş, qalanları isə öz arzuları ilə gəlmişlər. 32 nəfərdən 19-u şöbənin əsas sinfinə, 13 nəfəri isə hazırlıq sinfinə qəbul olunmuşdu. İlk qəbul olunanlardan 3 nəfəri rus dilini yaxşı bildiklərinə görə birbaşa ikinci sinfə keçirilmişdir. Onlar seminariyanın 1881-ci il ilk məzunları olmuş Səfərəli Vəlibəyov, Teymur Bayraməlibəyov və Mirzə Xəlilov idi.

Nə qədər qəribə olsa da, seminariyanın əsasnaməsində göstərilirdi ki, Azərbaycan şöbəsini idarə edən şəxs-inspektor mütləq xristian olmalıdır. Elə bu səbəbdən şöbənin ilk inspektoru Aleksey Osipoviç Çernyayevski olmuşdu.

## İnspektor A.O.Çernyayevski kimdir?

A.O.Çernyayevski Şamaxıda anadan olmuşdu. Azərbaycan dilini mükəmməl bilir, müsəlmanların həyat tərzinə, adət və ənənələrinə, dini görüş və ayinlərinə yaxından bələd idi. İlk təhsilini Şamaxı qəza məktəbində almış, 1866-cı ildə Mərəzə kəndində ilk xalq məktəbi təşkil etmişdir. O, Azərbaycan xalqına, onun böyüyən nəslinin təlim-tərbiyəsinə, müəllim kadrları hazırlığına, sözün həqiqi mənasında, fədakarlıqla xidmət etmişdir. 14 ildən artıq Qori Seminariyasının Azərbaycan şöbəsinin inspektoru vəzifəsində səmərəli elmi-metodik fəaliyyət göstərmiş, təlim-tərbiyənin bu və ya digər problemləri ilə bağlı məqalələr yazmış, azərbaycanlı balaları üçün "Vətən dili", "Rus dili" adlı dərsliklər hazırlamışdır. Qədirbilən xalqımız həmişə Çernyayevskinin xatirəsini əziz tutur. Hazırda Qobustan rayonunun Mərəzə qəsəbəsindəki tam orta məktəb onun adını daşıyır.

Çernyayevskinin rəhbərlik etdiyi şöbədə Azərbaycan dili və şəriət müəllimliyinə böyük ziyalı ruhanilər - sonralar Zaqafqaziya Müftisi olmuş, əslən qazaxlı Mirzə Hüseyn Əfəndi Qayıbzadə və salyanlı Şeyxülislam Əbdüssəlam Axundzadə qəbul edilmişdilər. Hər iki din xadimi seminariyanın Azərbaycan şöbəsində işlədiyi illərdə ilk seminaristlərdən olan Səfərəli bəy Vəlibəyov, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Teymur bəy Bayraməlibəyov və başqalarının mənəvi ataları olmuş, onlara əsl himayədarlıq etmişlər. Hətta sonralar Mirzə Hüseyn Əfəndi Qayıbzadə maddi köməyə ehtiyacı olan bəzi seminaristi öz xərci ilə oxutmuş, kasıb azərbaycanlılar üçün "Müfti məktəbi" adı ilə tarixə daxil olmuş bir məktəb də açmışdı...

## Tanınmış maarifçilərimizin çoxu bu seminariyanın məzunu olub

Fəaliyyət göstərdiyi 40 il ərzində 300-ə yaxın xalq müəllimi - elm, maarif, mədəniyyət və incəsənət carçıları hazırlayan bu tədris ocağı şərəfli bir inkişaf yolu keçmişdi. Azərbaycan xalq pedaqogikasının qiymətli incilərindən qidalanan, mütərəqqi rus və dünya pedaqoji fikir klassiklərinin ideyalarından, qabaqcıl məktəb təcrübəsindən faydalanan ilk xalq müəllimləri elm və maarif məşəlini Cənubi Qafqazın uzaq kəndlərinə aparmış, dünyəvi təhsildən kənarda qalmış gənclərin gözünü təhsil nuru ilə işıqlandırmışdır.

Tarixə xalq müəlliminin nümunəsi kimi daxil olan, ömürlərini millətə həsr edən, böyüyən nəslin təhsil-tərbiyəsi yolunda şam kimi əridən Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəli Vəlibəyov, Əliş bəy Tahirov, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Pənah Qasımov, Hənəfi Terequlov, Əli Hüseynov, Fərhad Ağazadə, Səməd bəy Acalov, Teymur bəy Bayraməlibəyov, Süleyman Sani Axundov, Bədəl bəy Bədəlbəyov və onlarca başqaları bu təhsil ocağından pərvazlanmışlar.





Məzunların demək olar ki, hamısı fəaliyyətə müəllim kimi başlayırdılar. Lakin sonralar məzunların bir çoxu nəzəriyyəçi pedaqoq, yazıçı, alim, inqilabçı, dövlət xadimi, musiqişünas oldular.

## Tarixə nəzər

Zaman-zaman azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan xalqımız 1918-ci ilin 28 mayında öz arzusuna qovuşdu. Milli dövlətçilik tarixinə öz möhürünü vuran Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Milli hökumətin maarif, təhsil sahəsində ilk tədbirlərindən biri Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının müsəlman şöbəsinin Azərbaycana köçürülməsi haqqında 22 iyun 1918-ci il tarixli qərarı oldu. Bu zaman seminariyanın Azərbaycan bölməsinin Qoridən köçürülməsini böyük maarifpərvər ziyalı Firidun bəy Köçərli həyata keçirdi.

Azərbaycan maarifi, eləcə də milli mədəniyyət və düşüncə tariximizə Qori Seminariyası adı ilə daxil olmuş bu təhsil ocağı öz məzunları tərəfindən "Anamız seminariya" (Ü.Hacıbəyli), həmin seminariyanın sabiq məzunu, sonralar müəllimi, inspektoru, nəhayət, həmin şöbə əsasında formalaşmış Qazax Müəllimlər Seminariyasının yaradıcısı və ilk direktoru Firidun bəy Köçərli tərəfindən isə "Maarif və mədəniyyət çeşməsi" adlandırılmışdır.

Qazax Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk gündən bütün fənlərin tədrisi ana dilində və mütərəqqi üsullarla aparılmışdır. Qürurverici haldır ki, həm Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi, həm də onun varisi olan Qazax Müəllimlər Seminariyası (sonralar Qazax Pedaqoji Texnikumu adı ilə) cəmi 40 il fəaliyyət göstərsələr də, hər iki təhsil ocağı doğma Azərbaycanımız üçün müəllim kadrları hazırlığında, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrinin inkişafında misilsiz xidmətlər göstərmişdirlər. Birinci seminariyanın Azərbaycan şöbəsi fəaliyyət göstərdiyi dövrdə 250-dən artıq əsl xalq müəllimi yetişdirmişdirsə, ikincisi sələfindən təxminən 10 dəfə çox, daha dəqiq desək, 2862 nəfər pedaqoji mütəxəssis hazırlamışdır.

## Qazax Müəllimlər Seminariyasının ilk qayğıkeşi

Ümummilli Lider Heydər Əliyev Qori Müəllimlər Seminariyasının varisi olmuş Qazax Müəllimlər Seminariyasının simvol yadigar binasına həmişə diqqət və qayğı göstərmişdir. Ulu Öndər 1999-cu ildə seminariyanın 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, paytaxt Bakıda elm və təhsil müəssisələrində, habelə bölgələrdə geniş ictimaiyyətin iştirakı ilə təntənəli tədbirlər keçirilmişdir. Ümummilli Lider Heydər Əliyevin Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinə həsr olunmuş tədbir iştirakçılarına göndərdiyi müraciətdə deyilirdi: "Zəngin mədəniyyət və təhsil ənənələrinə malik olan Azərbaycan müsəlman Şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ilk ölkələrdən biri olmuşdur. XIX əsrin ortalarından başlayaraq Azərbaycanda gedən siyasi və sosial-iqtisadi proseslər onun mədəni həyatına da güclü təsir göstərmiş, böyük vüsət alan maarifçilik hərəkatı yeni tipli təhsil ocağının yaranmasına təkan vermişdir".

## Prezident İlham Əliyevin sərəncamı ilə seminariyanın 100 illik yubileyi keçirildi

Prezident İlham Əliyev 20 ildən sonra, 2018-ci ilin 4 noyabr tarixli sərəncamı ilə müstəqil Azərbaycan Respublikasının təhsil işçilərinə gənc nəslin azərbaycançılıq məfkurəsi ruhunda yetişdirilməsi üçün zəngin irs qoyan Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd olunmasını gündəmə gətirmişdir.

Sərəncamda oxuyuruq: "Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarına əsasən, Qazax Müəllimlər Seminariyasının təşkili Azərbaycanın maarif salnaməsinin ən parlaq səhifələrindəndir. Görkəmli ədəbiyyatşünas, tanınmış maarifpərvər və ictimai xadim Firidun bəy Köçərlinin rəhbərliyi ilə fəaliyyətə başlayan Qazax müəllimlər seminariyası müstəqil Azərbaycan Respublikasının təhsil işçilərinə gənc nəslin azərbaycançılıq məfkurəsi ruhunda yetişdirilməsi üçün zəngin irs qoymuşdur".

Bir faktı da təəssüflə qeyd edək ki, ərazi iddiası ilə Ermənistan silahlı birləşmələrinin Qazaxın həmsərhəd kəndlərində apardıqları işğalçılıq siyasətinin acı nəticələri bu maarif ocağından da yan keçməmişdi. Burada orta məktəb fəaliyyət göstərirdi. Qazaxın 30 ildən artıq erməni işğalı altında olan 7 kəndindən biri olan Aşağı Əskiparanın məcburi köçkün ailələrinin uşaqları burada oxuyurdular. Üzərində "Qazax Seminariyası. 1918-1959-cu illər" yazılı lövhə vurulmuş bina səliqəsiz görkəmi ilə şərəflişanlı ziya ocağından çox təmir görməyən köhnə tikilini xatırladırdı...

## İrsə sahib çıxmağın ziyalılıq nümunəsi

Amma bu gün Qazaxa yolu düşənlər, bu müqəddəs elm məbədini ziyarət etmək istəyənlər tamam başqa mənzərə ilə rastlaşırlar. ADA Universiteti seminariyanın tarixi binasının və onun maarifçi missiyasının bərpası təşəbbüsünü irəli sürdü. 2021-ci ilin oktyabrında başlanan bərpa işlərinə Heydər Əliyev Fondu, Azərbaycan Sahibkarlar Konfederasiyası, Amerika Azərbaycan Cəmiyyəti cəlb olundu. Seminariya binasının tarixi əhəmiyyətli obyekt olduğu nəzərə alınaraq, bərpa işləri xüsusi yanaşma ilə aparıldı. Seminariyanın 100 illiyinin qeyd olunması barədə ölkə rəhbəri tərəfindən imzalanmış sərəncama əsasən, ADA Universiteti ana dilimizdə təhsilin ilk sütunu sayılan Qazax Müəllimlər Seminariyasının tarixi binasını əsaslı təmir və bərpa etdirməklə onun yenidən istifadəsini mümkün etdi. Hətta 2023-cü il yanvarın 26-da ADA Universiteti Qazax Mərkəzində Firidun bəy Köçərlinin 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Ötən il avqustun birinci ongünlüyündə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qərb bölgəsinə səfəri zamanı Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olub. Qeyd olunub ki, Qazax Müəllimlər Seminariyasının tarixi binasında 2022-ci ilin oktyabrından ADA Universiteti Qazax Mərkəzi fəaliyyət göstərir. 2022-2023-cü tədris ilində mərkəzdə təhsillə bağlı iki magistr proqramı həyata keçirilir.

Ötən ildən ADA Universiteti tərəfindən burada müəllimlər üçün "Bir müəllimin manifesti" birillik üçmərhələli ixtisasartırma proqramı reallaşdırılır. Proqram çərçivəsində bölgələrdən müsahibə yolu ilə seçilmiş müəllim və direktorlar birinci mərhələdə Qazax Mərkəzində, ikinci mərhələdə ADA Universitetində, üçüncü mərhələdə isə ADA Vaşinqton Mərkəzində tədrisə cəlb olunurlar. Bu proqram vasitəsilə ötən il 38, bu il isə 20 müəllim və məktəb direktoru ixtisasartırmaya cəlb edilib. Proqramın ilk 38 iştirakçısı arasından 4 nəfər seçilərək ADA Universitetinin Qazax Mərkəzində əməkdaş olaraq fəaliyyətə başlayıb. Bu proqramın əsas məqsədi seçilmiş təhsil işçilərini gücləndirilmiş ingilis dili dərslərinə cəlb etmək, inkişaf etmiş ölkələrin təhsil sistemi ilə yaxından tanış olmaq məqsədilə Amerika məktəbləri ilə əyani təcrübə əlaqəsi yaratmaqdır.

Mərkəzin nəzdində elmi-tədqiqat şöbəsinin fəaliyyəti və müxtəlif tipli təhsil və mədəniyyət yönlü beynəlxalq tədbirlərin təşkili planlaşdırılır. Bu fəaliyyət çərçivəsində 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin ərəb əlifbasından latın qrafikasına transliterasiyası həyata keçirilir.

Görünən odur ki, Qazax Müəllimlər Seminariyasının təşkili Azərbaycanın maarif salnaməsinin ən parlaq səhifələrindən biridir. Bu tarixi abidə yenidənqurma işlərindən sonra təhsil ocağı kimi fəaliyyət göstərməklə yanaşı, vaxtilə Qoridə təhsil almış Üzeyir bəy Hacıbəyli, Firidun bəy Köçərli kimi maarifçilərimizin irsini yaşadır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# "Məhəmməd Füzuli yaradıcılığı Şərq ədəbiyyatı kontekstində"

**AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Məhəmməd Füzuli yaradıcılığı Şərq ədəbiyyatı kontekstində" mövzusunda elmi seminar keçirilib. Seminar dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr edilib.**



Tədbiri açan AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli sərəncamından irəli gələn tapşırıqların icrası çərçivəsində AMEA-da, o cümlədən Şərqşünaslıq İnstitutunda bir sıra tədbirlər keçirildiyini qeyd edib. O, rəhbərlik etdiyi institutda dahi şairin yaradıcılığının diqqət mərkəzində olduğunu, bu mövzuda kitab və məqalələr çap olunduğunu, dissertasiyalar müdafiə edildiyini vurğulayıb, institut əməkdaşlarından Aydın Abıyevin "Füzuli və Türkiyə poeziyası", Ruhəngiz Cümşüdlünün "Füzulinin ərəbcə poetik irsi", Şəfəq Əlibəylinin "Füzulinin farsca divanı: linqvo-poetik özəlliklər" monoqrafiyalarının nəşr edildiyini xatırladıb.

Seminarda institutun elmi işlər üzrə direktor müavini dosent Ruhəngiz Cümşüdlünün "Məhəmməd Füzuli yaradıcılığı Şərq ədəbiyyatı kontekstində" mövzusunda məruzəsi dinlənilib. Məruzəçi bildirib ki, poetik yaradıcılığı coğrafi sərhəd, zaman miqyası tanımayan Məhəmməd Füzuli Azərbaycan, türk, ərəb və fars dillərində yazıb yaradıb. Şairin türkcəsinin əzəməti, ərəbcəsinin məntiqi, farscasının nəfis sadəliyi onun poetik üslubunun ayrılmaz hissəsidir.

Ərəbşünas alim daha sonra Füzulinin ərəbcə poetik irsi haqqında ətraflı danışıb.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Onun yaradıcılığı Azərbaycanın teatr və kino tarixində

**İlahi gözəlliyə, zəngin mənəvi aləmə malik Hökümə Qurbanovanın yaradıcılığı teatr və kino tariximizdə xüsusi bir mərhələ təşkil edir. Qeyri-adi səhnə temperamentinə malik aktrisa qəhrəmanın daxili aləmini tam şəkildə təqdim etməklə tamaşaçıların qəlbinə və düşüncəsinə hakim kəsilməyə həmişə müvəffəq olub.**

Bu il görkəmli kino və teatr aktrisası, film səsləndiricisi, SSRİ Xalq artisti Hökümə Qurbanovanın vəfatından 36 il ötür.

Hökümə Qurbanova 1913-cü ildə Bakıda tacir Abbasəli Qurbanov və Məlikət Maqomayevanın ailəsində dünyaya göz açıb. Məlikət xanım tanınmış bəstəkar Müslüm Maqomayevin doğma bacısı idi. Hökümə Qurbanova 1931-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirib, 1931-1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında (indiki Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyası) təhsil alıb. Aktyorluq fəaliyyətinə 1933-cü ildə "Azərbaycanfilm" Kinostudiyasında başlayıb, C.Cabbarlının təşəbbüsü ilə "Almas" filmində Yaxşı rolunda çəkilib.

Rejissorların diqqətindən heç vaxt kənarda qalmayan Hökümə Qurbanova Abbas Mirzə Şərifzadə, Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov kimi görkəmli sənətkarlarla birgə işləyib. Mehdi Məmmədov aktrisa haqqında "Onun sənət ulduzu" monoqrafiyasını yazıb.

Hökümə Qurbanovanın zəngin obrazlar qalereyasına romantik faciə, realist faciə, romantik-dramatik, realist-dramatik, psixoloji-dramatik, tarixi-dramatik səpkili, lirik təmayüllü psixoloji rollar, yumoristik dramatik rolların ən kamil nümunələri daxildir. Onun yaratdığı Sona (C.Cabbarlının "1905-ci ildə" tamaşası), Xuraman (S.Vurğunun "Vaqif"), Hermiona (U.Şekspirin "Qış nağılı"), Xumar (H.Cavidin "Şeyx Sənan"), Süsən (A.Şirvanzadənin "Namus"), Basantasena (Y.Osnos və B.Binnikovun "Hind gözəli") obrazlarında lirizm, romantik vüsət güclüdür.

Milli səhnəmizin misilsiz faciə aktrisası neçə-neçə kraliça obrazı yaradıb. Onun yaradıcılıq zirvəsində 1964-cü ildə rejissor Tofiq Kazımovun quruluşunda səhnələşən "Antoni və Kleopatra" tamaşası durur.



Aktrisanın 1956-cı ildə Londonda qastrolda olarkən ifası ingilis rejissorunu belə heyrətləndirib.

Hökümə Qurbanovanın "Bir ailə", "Onu bağışlamaq olarmı?", "Əmək və qızılgül", "İnsan məskən salır" filmlərində çəkildiyi rollar da dolğunluğu ilə yadda qalıb. Ömrünün ahıl çağında isə sevimli qızı, görkəmli aktrisa Vəfa Fətullayevanı itirməsi onun üçün ən böyük dərd olub. Hökümə Qurbanova sevimli qızının ölümündən 1 il sonra - 1988-ci il noyabrın 2-də Bakıda vəfat edib. Aktrisa Fəxri xiyabanda dəfn edilib.

Prezident İlham Əliyevin 2013-cü il 4 mart tarixli sərəncamına əsasən, Hökümə Qurbanovanın 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilib.

# İllər onu bizdən ayıra bilməz

**Çünki yadigar qoyub getdiyi bəstələr hər gün evimizdə, ekran və efirimizdə, qəlbimizdə səslənir...**



Onun yazdığı mahnıların adını çəkmək bəs edir ki, söhbətin kimdən getdiyi aydın olsun: "Dərələr", "Bakı, sabahın xeyir", "Uzaq yaşıl ada", "Dağlar", "İnsaf da yaxşı şeydir", "Payız gəldi", "Kəpənək"... Amma təkcə bunlarmı? Bir simfoniya, üç simfonik poema, üç kantata, simli kvartet, skripka və fortepiano üçün poema... Bəs bəstəkarın musiqi çeşməsindən süzülən kino və komediyalar üçün yazdığı musiqilər? Əslində, bunlar da onun yaradıcılığının hamısı deyil...

Bu il 600-dən çox mahnının, 9 musiqili komediyanın, 40-a yaxın film musiqisinin müəllifi olan Xalq artisti Emin Sabitoğlunun anadan olmasının 87-ci ildönümü tamam olur.

Unudulmaz bəstəkarın 80 illik yubileyi dövlət səviyyəsində keçirilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən, hazırlanan tədbirlər planına uyğun olaraq, sənətkarın 80 illik yubileyi ölkəmizin hər yerində silsilə tədbirlərlə qeyd edilib.

Bir payız axşamı görkəmli dramaturq Sabit Rəhmanın ailəsində dünyaya göz açan Emin sonralar məşhur mahnılarından birində söylədiyi kimi, "haradan gəlib hayana gedəcəyini" çox gözəl bilirdi. Belə olmasaydı, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdindəki orta musiqi məktəbində (indiki Bülbül adına məktəbdə) təhsil almazdı, 1954-cü ildə konservatoriyada, Qara Qarayevin sinfinə daxil olmazdı, 1957-1961-ci illərdə təhsilini P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında davam etdirməzdi.

Sonralar o, "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru vəzifəsində çalışıb. Sonrakı illərdə Dövlət Filarmoniyasında bədii rəhbər, Ü.Hacıbəyli adına Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) müəllim işləyib.

Ötən yüzillikdə Azərbaycan musiqisi tarixində layiqli iz qoyub getmiş Emin Sabit oğlu Mahmudov milli bəstəkarlıq məktəbinin layiqli nümayəndələrindən biridir. Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli bəstəkarın kino və tamaşalarda səslənən musiqiləri dillər əzbəridir, ayrı-ayrı müğənnilərin repertuarında geniş yer tutur. Onun filmlərə yazdığı musiqilər yüksək mədəniyyət, zəngin dünyagörüşü və yaradıcı intellektin məhsuludur. Bəstəkar tanınmış rejissorlardan - Həsən Seyidbəyli, Şamil Mahmudbəyov, Arif Babayev, Tofiq Tağızadə, Rasim Ocaqov və Vaqif Mustafayevlə əməkdaşlıq edib, onların çəkdikləri filmlərə yaddaqalan musiqi bəstələyib.

Noyabrın 2-si onun ad günüdür - özü aramızda olmasa da, mahnıları dilimizin əzbəri olan Emin Sabitoğlunun... O mahnılar, o musiqilər ki, hər dəfə ifa olunduqca qəlbimizdə romantik duyğular oyadır, bizi bizdən alıb çox-çox uzaqlara aparır. Elə uzaqlara ki, orada yaşıl ada var, "bir axşam taksidən payıza düşüb", "bahar həsrəti ilə payız axşamında", "yağışın əlindən qaçıb", "üzü dənizə sarı dayanır"...

Lakin üz tutub getdiyi dənizdəki yaşıl ada, nə aradan ötüb keçən illər onu - bənzərsiz və qənirsiz musiqilərin bəstəçisi olan Emin Sabitoğlunu bizdən ayıra bilməz, çünki yadigar qoyub getdiyi həmin bəstələr hər gün evimizdə, ekran və efirimizdə və qəlbimizdə səslənir...

Bir də "Dədə Qorqud"da, "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndə, "Evləri köndələn yar"da, "Özgə ömür"də, "Ad günü"ndə, "Gün keçdi"də, "Bəyin oğurlanması"nda, "Otel otağı"nda...

# Maraqlı dünya

## Dünyanın ən nəhəng binası



**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda dünyanın ən böyük binasının tikintisinə başlanılıb. "Mukaab" 400 metr hündürlüyə və genişliyə malik nəhəng bir kub şəklində olacaq.**

Nəhəng binanın içərisinə 20 "Empire State" binası yerləşə bilər. Ənənəvi islam memarlığından ilhamlanan xarici görünüşə sahib olacaq "Mukaab"ın mərkəzində spiral formalı başqa bir böyük qüllə də yerləşəcək.

2 milyon kvadratmetr bünövrəyə sahib binanın qazıntı işlərinin demək olar ki, tamamlandığı və indiyə qədər 10 milyon kubmetr torpaq daşındığı bildirilir. Bu müddət ərzində gündəlik təxminən 250 ekskavatorla yanaşı, 400-dən çox avadanlıqdan istifadə olunub. Tikintini asanlaşdırmaq üçün "King Khalid" yolunu keçərək tikinti sahələrini birləşdirən müvəqqəti bir körpünün də inşa ediləcəyi qeyd edilir. Şirkət təxminən 900 gündəlik işçi heyəti ilə işlərin sürətlə irəlilədiyini bildirir.

2030-cu ilə qədər tamamlanması planlanan binada təxminən 100 min mənzil, 980 min kvadratmetr mağaza, 1,4 milyon kvadratmetr ofis sahəsi, hotellər, mədəniyyət mərkəzləri, bir universitet, bir teatr və ikonik bir muzey olması nəzərdə tutulub.



## Makedoniyalı İsgəndərə məxsus geyim tapılıb

**Yunanıstanın Demokrat Universitetinin arxeoloqları Vergina şəhərində kral məzarlarından birində tapılan tunikanın sahibini müəyyən ediblər. Məlum olub ki, tapıntı Makedoniyalı İsgəndərə məxsus olub.**

Əvvəlki araşdırmalar göstərirdi ki, Böyük İsgəndərin bir neçə ailə üzvü Verginadakı I, II və III kral məzarlarında dəfn edilib. İsgəndərin dəfn yeri isə hələ də məlum deyil.

Müəyyən edilib ki, I məzardakı qalıqlar İsgəndərin atası II Filipə məxsusdur. II məzardakı qalıqlar İsgəndərin ögey qardaşı III Filipə, III məzardakı qalıqlar isə yeniyetmə yaşlarında dünyasını dəyişmiş İsgəndərin oğlu IV İsgəndərə məxsusdur. II məzardakı qalıqlarla birlikdə bənövşəyi-ağ tunika da tapılıb.

Tədqiqatçılar qaz xromatoqrafiyası və infraqırmızı spektroskopiya vasitəsilə müəyyən ediblər ki, tunika pambıqdan hazırlanıb və yalnız yüksək təbəqə üçün icazə verilən bənövşəyi rəngə boyanıb. O da məlum olub ki, tunika II məzardakı frizdə Böyük İsgəndər kimi tanınan ovçunun üzərində təsvir edilib. Geyim sərkərdə ilə mümkün əlaqəsi olduğu düşünülən qızıl əsa, palıd çələngi və tacla yanaşı tapılıb. Tədqiqatçılar tunika və qızıl əşyalarının niyə məhz bu məzara qoyulduğunu bilmirlər, lakin bunun qardaşının vəfatından sonra III Filipin tacqoyma mərasimi ilə əlaqəli ola biləcəyini təxmin edirlər.

## "Vampir qız"ın üzü rekonstruksiya edilib

**Polşanın Torun şəhərindəki Nikolay Kopernik Universitetinin məlumatına görə, isveçli arxeoloq və heykəltaraş Oskar Nilson XVII əsrdə Polşada dəfn edilmiş və yerli sakinlərin "Zosya" adlandırdığı "vampir qız"ın üzünü rekonstruksiya edib.**



Oskar Nilson kəllə sümüyünün 3D printerlə çap edilmiş nüsxəsinə müxtəlif uzunluqlu sancaqlar yapışdıraraq üzün anatomik nöqtələrində toxuma qalınlığını müəyyən edib. Daha sonra bu sancaqların üzərinə xüsusi gildən hazırlanmış əzələlər əlavə edilib. Üzün cizgilərini və toxumasını daha real göstərmək üçün göz bəbəkləri, qırışlar, məsamələr və mümkün travmalar nəticəsində yaranan çapıqları nəzərə alaraq əlavə təbəqələr tətbiq edilib. Son mərhələdə heykəl silikona batırılıb, saç, kirpik və qaşlar əlavə olunub. "Zosya"nın üz heykəli önümüzdəki həftələrdə Polşaya göndəriləcək.

Qeyd etmək lazımdır ki, Nikolay Kopernik Universitetinin arxeoloqları 2022-ci ildə Polşanın şimal-qərbində yerləşən Bıdqoş yaxınlığındakı Pen kəndindəki qəbiristanlıqda XVII əsrə aid, 18-20 yaşlarında vəfat etmiş qızın skeletini aşkar ediblər. Onun boynuna oraq qoyulmuş, ayağının bir barmağına isə qıfıl bağlanmışdı. Alimlərin fikrincə, həmin dövrdə bu cür dəfn mərasimləri vampirlərdən qorunmaq üçün tətbiq olunurdu.

## Kosmik səyahət üçün ilk biletlər satılıb

**Çinin "Deep Blue Aerospace" kosmik şirkəti 2027-ci ildə planlaşdırılan kosmik səyahət üçün ilk iki bileti satıb.**



Səyahət təxminən 12 dəqiqə davam edəcək. Bu qısa səyahət zamanı turistlər Yerə qayıtmazdan əvvəl açıq kosmosda təxminən beş dəqiqə çəkisizlik şəraitində qalacaqlar.

Bir biletin qiyməti təxminən 210 min dollardır.

## Qədim Mayya şəhəri aşkar olunub

**Meksikanın cənub-şərqində yerləşən Kampeçe əyalətində Valeriana adlı qədim Mayya şəhəri aşkar edilib.**



Əsrlər boyu meşələrin dərinliklərində gizlənən şəhər Tulan Universitetinin Arxeologiya fakültəsinin tələbəsi Lyuk Auld Tomas tərəfindən kəşf olunub. O, internetdə araşdırma apardığı zaman bölgə ilə bağlı maraqlı məlumatlara rast gəlib və nəticədə təsadüfən bu tapıntı ortaya çıxıb.

Meksikada ətraf mühitin monitorinqi təşkilatının apardığı lazer tədqiqatının araşdırmasını nəzərdən keçirən Lyuk Auld Tomas meşə ilə örtülü ərazidə itmiş bir şəhərin siluetini görüb. Komanda yoldaşları ilə birlikdə məlumatları arxeoloji üsullarla tədqiq edən tələbə başqalarının gözdən qaçırdığı qədim şəhərin izlərini ortaya çıxarmağı bacarıb.

Valeriana Calakmuldan sonra ikinci ən böyük Mayya şəhəri hesab edilir. Təxmin edilir ki, eramızın 750-850-ci illərində şəhərin 30-50 min nəfər əhalisi olub. Calakmul bölgəsindən təxminən 100 kilometr aralıda yerləşən Valeriana Mayya xalqının sıx şəkildə yaşadığı qədim Xpujil antik bölgəsinin əsas yoluna cəmi 15 dəqiqəlik məsafədədir. Buna baxmayaraq, yerli sakinlər ondan xəbərsiz olublar.

Arxeoloqlar ümumilikdə üç fərqli ərazini tədqiq edib və şəhər hüdudlarında müxtəlif ölçülərdə 6 min 764 tikili müəyyən ediblər. Kəşfi ilə tarixə düşən arxeoloq Lyuk Auld Tomas və tədqiqatın həmmüəllifi, professor Marsello Kanuto hesab edirlər ki, bu yeni tapıntı tropik bölgələrin "sivilizasiyaların öldüyü yer" olduğu tezisini dəyişəcək.

## Kosmosda 1,3 milyard işıq ili ölçülü tapıntı

**Yer kürəsinin 6,9 milyard işıq ili uzaqlığında nəhəng kosmik struktur kəşf edilib. Qalaktikalardan təşkil edilmiş struktur formaca halqaya bənzəyir.**



Müasir təsəvvürlərə əsasən, sözügedən kosmik struktur, əslində, mövcud olmalı deyil. Lakin bu, son illər ərzində ikinci belə kəşfdir.

Kosmik prinsiplərə görə, kainatdakı bütün materiya bərabər şəkildə paylanmış, kosmos bütün istiqamətlərdə bircins və eyni olmalıdır. Hazırda hesab edilir ki, ən böyük mümkün kosmik strukturun ölçüsü 1,2 milyard işıq ilindən böyük ola bilməz. "Böyük Halqa"nın ölçüsü 1,3 milyard işıq ili, çevrəsi isə 3,3 milyard işıq ili təşkil edir.

Qeyd etmək lazımdır ki, digər kosmik strukturu alimlər 3 il bundan öncə kəşf etmişdilər. Adını formasından alan "Nəhəng Qövs"ün uzunluğu 3,3 milyard işıq ili təşkil edir. "Nəhəng Qövs" və "Böyük Halqa" bir-birilərinə olduqca yaxın məsafədə yerləşirlər. Alimlər kosmosda bu cür nəhəng strukturların necə formalaşdıqlarını hələ də anlaya bilmirlər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Zəfərin təməl günü
31 il öncə Ulu Öndər Heydər Əliyevin çağırışı ilə Azərbaycan Ordusunun müzəffər yürüşünün bünövrəsi qoyuldu
Paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb
Azərbaycan ilə Somali arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur
İspaniya COP29-da yüksək səviyyədə təmsil olunacaq
Azərbaycan-Əlcəzair münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Keçmişdən bu günə

## 146 il əvvəl...

### Ölkəmizdə ilk neft boru kəməri 1878-ci ildə Balaxanı mədənlərindən Bakının Qara Şəhərdəki neftayırma zavoduna çəkilib

**Arxiv materiallarından, qəzet-jurnal məqalələrindən, ən nəhayət, neftçi alimlərin açıqlamalarından məlum olur ki, tarixən Bakı nefti yaxın-uzaq ölkələrə və şəhərlərə tuluqlarda, çəlləklərdə, küplərdə, atlar, qatırlar, dəvə karvanı və gəmi, daha sonra isə qatarlarla daşınıb. Maraqlıdır, hazırda Azərbaycanda bu funksiyanı yerinə yetirən boru kəməri nəqliyyatı nə vaxt yaranıb?**



Ölkəmizdə neft boru çəkilişi nəqliyyatının tarixi neft sənayesinin yaranması dövrünə - XIX əsrin ortalarına təsadüf edir. Belə ki, ilk neft kəməri 146 il bundan əvvəl, 1878-ci ildə Balaxanı mədənlərindən Bakının Qara Şəhərdəki neftayırma zavoduna çəkilib. Rusiya imperiyası tərəfindən uzunluğu 885 kilometr olan Bakı-Batumi ilk neft məhsulları kəməri isə 1907-ci ildə inşa edilib.

Abşeronda, Xəzər dənizində, respublikanın digər regionlarında neft yataqlarının istismarı yeni kəmərlərin çəkilməsinə səbəb olub. Əlibayramlı-Bakı, Neft Daşları-Bakı, Siyəzən-Bakı boru xətləri ölkə daxilində olan əsas neft kəmərləridir.

Xəzərin Azərbaycan sektorundan çıxarılan neftin dünya bazarına göndərilməsi üçün iki neft kəməri - Bakı-Novorossiysk və Bakı-Supsa 1990-cı illərin sonunda istifadəyə verilmişdir. Bu neft kəmərləri ilə məhsulun bir hissəsi daşınır.

Görünən odur ki, Azərbaycan tarixi müstəqilliyinə qovuşduqdan, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə respublikaya siyasi hakimiyyətə qayıtdıqdan sonra Bakı neftinin taleyində yeni inkişaf mərhələsi başlanıb. 1994-cü ildə ölkənin müstəqil inkişafının başlıca vasitəsi kimi Ulu Öndərin təşəbbüsü və rəhbərliyi altında müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlanıb. Müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün Ümummilli Lider gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirib. Bu strategiya xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb olunmasını, xam neftin daşınması yollarının şaxələndirilməsini təmin edib.

Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici dövlətlərin neft şirkətləri qrupu (Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti - ABƏŞ) arasında "Əsrin müqaviləsi" imzalanıb. Bununla da Azərbaycan dövlətinin yeni neft strategiyası rəsmiləşdirilib.

Ümummilli Liderin böyük diplomatik səyləri hesabına sözügedən layihənin siyasi baxımdan alternativsiz olduğu beynəlxalq miqyasda tam sübuta yetirilib. Bununla da müstəqil respublikamızın davamlı inkişafı və yüksəlişi üçün daha bir möhkəm bünövrənin əsası qoyulub. Bu gün mənbəyini Xəzərdən götürən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin uzunluğu 1768 kilometrdir. Ümumiyyətlə, səmərəlilik baxımından digər nəqliyyat növlərindən kifayət qədər fərqlənən belə boru xətləri yerin üstü və altında salınmaqla yanaşı, suyun altında da çəkilir. BTC-yə gəldikdə isə, bu kəməri "Üç dənizin əfsanəsi" adlandırırlar. Belə ki, bu xətt Xəzər, Qara dəniz və Aralıq dənizini birləşdirir. Yolu Xəzər sahilindən başlayan boru xətti öz marşrutu boyu bir neçə dağ silsiləsini dəf edir, o cümlədən 2800 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrə çatan Ceyhan keçidi də daxil olmaqla, 1500-dən artıq su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir. Bu gün BTC dünya bazarlarına Azərbaycan nefti ilə yanaşı, müəyyən həcmdə Qazaxıstan və Türkmənistan nefti də daşıyır. İstifadəyə verildiyi vaxtdan - 2006-cı ilin ortalarından bu ilin birinci yarısının sonunadək kəmərlə nəql olunan neft Ceyhanda 5707 tankerə yüklənib və yola salınıb.

Ümumilikdə Azərbaycan neftinin Xəzər dənizindən dünya bazarlarına çıxarılması üçün Yer planetinin ekvatorunun uzunluğunun 1/10-i həddində neft kəmərləri tikilib. Qeyd etdiyimiz kimi, Bakı-Novorossiysk 1347 kilometr, Bakı-Supsa 833 kilometr və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri 1768 kilometrdir.

Müasir dövrdə dünyanın ən inkişaf etmiş ölkələrində belə neft və neft məhsullarının boru ilə orta və uzaq məsafələrə daşınması iqtisadi baxımdan ən sərfəli vasitə hesab edilir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4165
Sifariş 2482

Qiyməti 60 qəpik